RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 216 (8239) ÇƏRŞƏNBƏ AXŞAMI, 1 oktyabr 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# İslahatlar dərinləşir, reytinq yüksəlir, nüfuz artır

## Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət Dünya Bankının nüfuzlu "Doing Business" hesabatında yenidən yüksək qiymətləndirildi

**Bu, Dünya Bankının mütəmadi hazırladığı hesabatlar üzrə regionun lideri olan Azərbaycanın ildən-ilə artan uğurlarının real göstəricisidir.**
**Bu, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və dərin iqtisadi islahatlarına verilən beynəlxalq qiymət olmaqla bərabər reallığa çevrilən yeniliklərin dünyanın ən nüfuzlu iqtisadi qurumlarının diqqətindən yayınmamasının əyani təzahürüdür.**

- *"Doing Business 2017" - 65-ci yer;*
- *"Doing Business 2018" - 57-ci yer;*
- *"Doing Business 2019" - 25-ci yer;*
- *"Doing Business 2020" - 20-ci yer.*

Dünya Bankının hər il hazırladığı hesabat biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. "Doing Business" komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

*Ardı 4-cü səh.*

# Fransa-Azərbaycan əlaqələri uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Fransa Respublikası Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri və Azərbaycan üzrə sədr müavini Alen Uperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Azərbaycana xoş gəlmisiniz, sizi salamlayıram. Əminəm ki, səfəriniz Fransa-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün önəmli rol oynayacaq. Bu yaxınlarda səfirin etimadnaməsini qəbul edərkən Fransa-Azərbaycan əlaqələri haqqında öz fikirlərimi bölüşdüm. Hesab edirəm ki, əvvəlki dövrlərdə bu əlaqələrin inkişafı istiqamətində böyük işlər görülmüşdür və müxtəlif sahələrdə Fransa-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Siyasi əlaqələrimiz həmişə yüksək səviyyədə olub. Dövlət başçıları səviyyəsində bir çox qarşılıqlı səfərlər edilib. Onu da bildirməliyəm ki, Heydər Əliyevin Prezident vəzifəsinə seçiləndən sonra ilk xarici səfəri Fransaya olmuşdur. Mənim də Prezident vəzifəsinə seçilməyimdən sonra ilk rəsmi səfərim Prezident Jak Şirakın dəvəti ilə Fransaya olub. Fürsətdən istifadə edərək Prezident Jak Şirakın vəfatı ilə əlaqədar bir daha başsağlığı verirəm.

Fransa prezidentləri Azərbaycana rəsmi səfərlər etmişlər və keçən ilin iyul ayında mənim Fransaya səfərim çərçivəsində Prezident Makron ilə çox səmimi görüşümüz olub. Yüksək səviyyəli səfərlər bütün sahələrdə əlaqələrin inkişafına güclü təkan verib. Təsadüfi deyil ki, bir çox sahələrdə, o cümlədən energetika, nəqliyyat, kosmik sənaye, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. Əlbəttə ki, parlamentlərarası əlaqələr ümumi əlaqələrimizin inkişafına çox mühüm töhfə vermişdir. Əminəm ki, sizin səfəriniz də bu istiqamətdə çox uğurlu və önəmli addım olacaqdır.

Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri və Azərbaycan üzrə sədr müavini **Alen UPER** dedi:

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə təşəkkürümüzü bildiririk. Ölkənin birinci şəxsi tərəfindən səfirimizin müşayiət etdiyi nümayəndə heyətimizin qəbul edilməsindən şərəf hissi duyuruq. Səfir bu yaxınlarda təyin olunub və öz fəaliyyətinə artıq başlayıb. Şəxsən öz adımdan və Fransa adından Sizə və xanımınıza təşəkkürümüzü bildiririk ki, Prezident Şirakın vəfatı ilə əlaqədar siz dostluğunuzu nümayiş etdirdiniz. Dostluğun müddəti olmur. Siz bunu sübuta yetirdiniz. Ölkələrimizi səciyyələndirəcək bir söz olarsa, o, dostluq sözü olardı. Ölkələrimiz arasında güclü əlaqələr var. Çünki bir əsrdən çox müddət əvvəl sizin hökumətiniz Fransada mühacir olmuşdur. General de Qol hələ 1944-cü ildə burada olmuşdur.

Alen Uper mədəniyyətlərarası və dinlərarası dialoqda Azərbaycanın əhəmiyyətini xüsusi olaraq vurğuladı və Fransada bu mövzu ilə əlaqədar müzakirələr aparılan zaman Azərbaycanı nümunə kimi təqdim etdiyini bildirdi.

Dövlət başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar Azərbaycanın mövqeyini diqqətə çatdıraraq bildirdi ki, bu münaqişə yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Görüşdə Azərbaycan ilə Fransa arasında dostluq və əməkdaşlığın inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi rolu qeyd olundu. Həmçinin söhbət zamanı iki ölkə arasında elmi tədqiqat, tibb və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Neftdən əldə edilən gəlirlər ilk növbədə sosial məsələlərin həllinə yönəldilir

Həyata keçirilən sosial islahatlar çoxşaxəlidir. Buraya əməkhaqları və pensiyaların, sosial müavinətlərin, həmçinin müxtəlif kateqoriyadan olan insanlara verilən təqaüdlərin artırılması daxildir. Bununla yanaşı, aparılan sosial siyasətin əsas məqsədi əmək qabiliyyətli əhalinin işlə təmin olunmasıdır. Çünki işləyən hər bir vətəndaş özünün sosial rifahını yaxşılaşdırmaq imkanı qazanır.

Sosial siyasətin başlıca məqsədi Azərbaycan vətəndaşının rifah halının yaxşılaşmasına yönəlib. Dövlət əldə etdiyi gəlirlərdən ilk növbədə öz vətəndaşlarının həyat səviyyəsinin daha da yaxşılaşdırılması məqsədilə istifadə edir. "Əsrin müqaviləsi"ndən əldə olunan gəlirlər də ilk növbədə sosial problemlərin həllinə yönəldildi.

Prezident İlham Əliyev sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə dövlətin əldə etdiyi bütün gəlirlərdən, o cümlədən neft gəlirlərindən əhalinin sosial rifahının yaxşılaşdırılmasında istifadə olunduğunu vurğulayaraq demişdir: "Məcburi köçkünlər üçün yüzdən çox şəhərcik salındı. Çadır şəhərciklərini biz hələ 2007-ci ildə ləğv etdik. Nəyin hesabına? Neft Fondunun hesabına. Neft Fondunun vəsaiti haradan gəlir? "Əsrin kontraktı"nın icrasından. Biz yüz minlərlə köçkünə yeni evlər verdik, yeni mənzillər təqdim etdik. Şəhid ailələrinə, müharibə veteranlarına edilən güzəştlər, verilən müavinətlər, mənzillər, minik avtomobilləri. Yəni "Əsrin müqaviləsi"nin çox böyük faydası var və biz vəsaitdən düzgün istifadə etdik... Sosial infrastruktur tamamilə yenidən quruldu. 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikildi və təmir olundu, idman qurğuları inşa edildi...

*Ardı 4-cü səh.*

# Milli Məclis Prezident İlham Əliyevin mütərəqqi siyasətinin dəstəkçisidir

## Oqtay ƏSƏDOV: "Parlamentin payız sessiyası dövründə bu istiqamətdəki fəaliyyət daha da gücləndiriləcək"

Dünən Milli Məclisin 2019-cu il payız sessiyasının ilk iclası keçirildi. Dövlət himni səsləndirildikdən sonra Milli Məclisin Sədri Oqtay Əsədov ötən sessiya dövründə görülən işlərin hesabatını verdi.

2019-cu ilin yaz və növbədənkənar sessiyalarının uğurla başa çatdırıldığını vurğulayan Oqtay Əsədovun sözlərinə görə, Milli Məclisin nəzərdə tutulan qanunvericilik səlahiyyətləri tam həcmlə yerinə yetirilib. Parlamentin 17 iclasında 214 qanun və qərar qəbul olunub. Azərbaycan bir neçə beynəlxalq təşkilatın üzvü olduğu üçün ali qanunverici orqanın beynəlxalq əlaqələri də inkişaf etdirilib və bu qurumlarda parlamentin üzvləri çox fəal iştirak ediblər. 35 ölkəyə 106 səfər baş tutub. Milli Məclisin xətti ilə Bakıda 4 beynəlxalq tədbir keçirilib: "Prezident İlham Əliyevin müəyyən etdiyi mütərəqqi daxili və xarici siyasətin dəstəklənməsi istiqamətində lazımi tədbirlər həyata keçirilib və dövlət başçısının siyasətinə hər zaman dəstək verən parlament payız sessiyası dövründə bu istiqamətdəki fəaliyyətini daha da gücləndirəcək".

Sədr həmçinin qanunvericilik işlər planı barədə də məlumat verdi: "Payız sessiyasının qanunvericilik planı hazırlanıb. Bu sessiyada bir çox mühüm qanun layihələrini, o cümlədən "Dövlət büdcəsi haqqında" qanun layihəsini və büdcə zərfini qəbul edəcəyik. Əminəm ki, payız sessiyası uğurlu olacaq".



Gündəliyinə müzakirə olunması üçün 20 məsələ daxil edilən iclasda ilk olaraq Milli Məclisin 2019-cu il payız sessiyasının qanunvericilik işlər planı müzakirəyə çıxarıldı.

Sonra Oqtay Əsədov bildirdi ki, Milli Məclisin deputatı Rafael Cəbrayılov mandatından imtina etməklə bağlı parlamentə müraciət edib. Müraciətlə bağlı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Bildirdi ki, deputatın mandatdan məhrum edilməsi ilə bağlı son qərarı Mərkəzi Seçki Komissiyası qəbul edəcək.

Ə.Hüseynlinin sözlərinə görə, Konstitusiyada bu hal 89-cu maddənin 5-ci bəndində nəzərdə tutulub: "Bu məsələ ilə bağlı Milli Məclis hər hansı qərar qəbul etmir. Protokol qaydasında müraciət Mərkəzi Seçki Komissiyasına göndərilir. Seçki Məcəlləsinin 175-ci maddəsinə uyğun Mərkəzi Seçki Komissiyası deputatın mandatından məhrum edilməsi barədə qərar qəbul edir".

Sədr Oqtay Əsədov isə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə tapşırdı ki, sənədlər qanunvericiliyin tələblərinə uyğun olaraq hazırlanıb Mərkəzi Seçki Komissiyasına göndərilsin.

Müzakirələr zamanı deputatlardan Fərəc Quliyev, Vahid Əhmədov, Nəsib Məhəməliyev, Musa Qasımlı, Əli Məsimli, Qüdrət Həsənquliyev, Azay Quliyev, Bəxtiyar Əliyev, Qənirə Paşayeva, Tahir Kərimli və digərləri çıxış edərək vurğuladılar ki, qanunvericilik işlər planı zəngindir və buraya cəmiyyətin sifarişi olan, ölkənin sosial-iqtisadi inkişafına töhfə verəcək mühüm sənədlər daxil edilib. Belə ki, işlər planına daxil edilən "Peşə bilikləri haqqında", "Sosial sifarişlər haqqında", "Ali təhsil haqqında", "Yazılı abidələr haqqında", "Reproduktiv sağlamlıq haqqında", "İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında" və digər mühüm sənədlərin müzakirəyə çıxarılması ilk növbədə vətəndaş məmnunluğuna xidmət edir.

*Ardı 2-ci səh.*

## *Elmar MƏMMƏDYAROV:*

# "Təcavüzə və digər qanunazidd hərəkətlərə göz yumulursa, dinc, ədalətli və firavan dünyanı təmin etmək çox çətindir"

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 74-cü sessiyasının ümumi müzakirələrində bəyanatla çıxış edib.

AZƏRTAC xəbər verir ki, nazir dünyanın bu gün üzləşdiyi hədə və təhdidlərin beynəlxalq hüquqi nizamın gücləndirilməsi və çoxtərəfliliyə və Birləşmiş Millətlər Təşkilatına inamın yenidən artırılması üçün birgə səylərimizi tələb etdiyini söyləyib.

Elmar Məmmədyarov qeyd edib ki, BMT Nizamnaməsinin əsasını təşkil edən çoxtərəfli və beynəlxalq əməkdaşlıq dəyərlərinin qorunması BMT-nin sütunları olan sülh və təhlükəsizlik, inkişaf və insan haqlarını təşviq etmək və onlara dəstək olmaq üçün çox vacibdir. Bu xüsusda, islah edilmiş və gücləndirilmiş çoxtərəfli bir sistemi təşviq etmək və dəstəkləmək bizim ümumi vəzifəmizdir. Hamılıqla qəbul edilmiş fundamental dəyərlərə, norma və prinsiplərə riayət olunmursa, eləcə də təcavüzə və digər qanunazidd hərəkətlərə göz yumulursa, dinc, ədalətli və firavan bir dünyanı təmin etmək məqsədinə nail olmaq çox çətindir. Birləşmiş Millətlər Təşkilatının əsas orqanları olan Təhlükəsizlik Şurası və Baş Assambleya tərəfindən qəbul edilmiş qətnamələrin icrası, habelə hesabatlılıq bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Təhlükəsizlik Şurasının icrası məcburi olan qətnamələrinə riayət olunmaması Şuranın beynəlxalq sülh və təhlükəsizliyin qorunması üzrə əsas məsuliyyətini yerinə yetirməsində qəbul edilmiş bir təcrübə ola bilməz.

*Ardı 4-cü səh.*

## Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının yaranmasının 70-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ötən illər ərzində Çin Xalq Respublikası böyük inkişaf mərhələsi keçərək həyatın bütün sahələrində misilsiz uğurlar qazanmış, köklü iqtisadi islahatlar yolu ilə modern infrastruktura malik ölkəyə, dünyanın ən aparıcı dövlətlərindən birinə çevrilmişdir.

Müəllifi olduğunuz "Bir kəmər, bir yol" təşəbbüsü irimiqyaslı transmilli beynəlxalq əməkdaşlıq layihəsi kimi ayrı-ayrı ölkələrin və bütövlükdə Avrasiya məkanının çiçəklənməsi üçün geniş imkanlar açmışdır.

Xüsusi olaraq qeyd etmək istərdim ki, biz Azərbaycan-Çin əməkdaşlığına böyük əhəmiyyət veririk. Qədim tarixə və xoş ənənələrə malik olan əlaqələrimiz hazırda özünün dinamik və hərtərəfli inkişaf dövrünü yaşayır.

Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi siyasi, iqtisadi və humanitar sahələrdə birgə səmərəli işimiz üçün yaxşı zəmin yaratmışdır. Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın ikitərəfli və çoxtərəfli qaydada daha da dərinləşməsi istiqamətində atdığımız addımlar bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 sentyabr 2019-cu il*

## Şamaxı rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şamaxı rayonunda 2500 hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 8 kiçik sututarında zəruri təmir-bərpa işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən sututarlarında təmir-bərpa işlərinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2019-cu il*

## V.H.Tağıyevin Ağsu Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vahid Heydər oğlu Tağıyev Ağsu Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2019-cu il*

## Ə.Q.Seyidəliyevin Ağsu Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Ənvər Qasım oğlu Seyidəliyev Ağsu Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2019-cu il*

# Milli Məclis Prezident İlham Əliyevin mütərəqqi siyasətinin dəstəkçisidir

## Oqtay ƏSƏDOV: "Parlamentin payız sessiyası dövründə bu istiqamətdəki fəaliyyət daha da gücləndiriləcək"

*Əvvəli 1-ci səh.*






Deputatlar müxtəlif qanun layihələri - Rəqabət Məcəlləsi, "Təhsil kreditləri haqqında" qanun layihələrinin qanunvericilik işlər planına daxil edilməsini təklif etdilər. Bildirildi ki, təhsil kreditləri ilə bağlı sənədin qəbulu minlərlə insanın ailə büdcəsinə təsir göstərəcək, həmçinin təhsilin keyfiyyətinin yüksəlməsinə müsbət təsir edəcək. Sədr Oqtay Əsədov isə bildirdi ki, təhsil kreditləri ilə bağlı hazırlanan sənəd komitələrdə müzakirə olunsa da parlamentə təqdim edilməyib. Spiker deputatları qanun layihəsini parlamentə təqdim etməyə çağırdı.

Parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə Seçki Məcəlləsində dəyişiklik edilməsinin vacibliyini vurğuladı. Onun sözlərinə görə, Prezident seçkilərinə qatılan namizəd üçün tələb olunan sənədlər bələdiyyə seçkilərində iştirak edib üzv seçilmək istəyənlərdən də tələb edilir. Bu, həddindən artıq çox sənəddir və buna görə də məcəllədə dəyişikliyə ehtiyac var.

Çıxışlardan sonra Milli Məclisin 2019-cu il payız sessiyasının qanunvericilik işlər planı təsdiqləndi.

Gündəliyin ikinci məsələsi - "Azərbaycan Respublikası Dövlət gerbi haqqında" Konstitusiya qanununun ləğvi barədə" Konstitusiya Qanunu (ikinci səsvermə) haqqında komitə sədri Əli Hüseynli məlumat verərək bildirdi ki, Dövlət gerbi haqqında yeni qanun qəbul olunduğu üçün bu sənəd ləğv olunur. Sənəd səsverməyə qoyularaq qəbul edildi.

"Texniki tənzimlənmə haqqında" qanun layihəsi barədə (üçüncü oxunuş) məlumat verən parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qeyd etdi ki, 4 fəsil 18 maddədən ibarət olan bu sənəd mallar (işlər, xidmətlər), onlarla əlaqəli olan proseslər və istehsal metodları üzrə texniki tənzimlənmənin məqsəd və prinsiplərini, tətbiqi qaydalarını müəyyən edir. Texniki tənzimləmənin məqsədi insanların həyat və sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsinin təmin edilməsi, istehlakçıların hüquqlarının və qanuni maraqlarının müdafiəsi, ticarətdə texniki maneələrin aradan qaldırılması, malların rəqabətqabiliyyətliyinin artırılmasıdır.

İclasda "Ələt azad iqtisadi zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında" qanunlarda və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (ikinci oxunuş) sənədlər təsdiq edildi. Deputatlar həmçinin İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" və "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) müsbət münasibət bildirdilər.

Gündəlikdəki "Uşaq hüquqları haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş) sənədlər, eləcə də "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) edilən dəyişikliklər "Psixoloji yardım haqqında" qanun layihəsinə uyğunlaşdırmaq məqsədi daşıyır. Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) isə "Psixoloji yardım haqqında" qanunun tələblərinin pozulmasına, habelə psixoloji yardım almağa məcbur etməyə görə inzibati məsuliyyət müəyyən edir.

İclasda müzakirəyə çıxarılan "Lombardlar haqqında" qanun layihəsi barədə (ikinci oxunuş) məlumat verən parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirdi ki, 6 fəsil 32 maddədən ibarət olan bu sənəd lombardlar tərəfindən kreditlərin verilməsi və əşyaların saxlamaya qəbul edilməsi, habelə lombardlar tərəfindən həyata keçirilən fəaliyyətin nizamlanması, ona nəzarət ilə bağlı münasibətləri tənzimləyir. Sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

"Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" və "Energetika haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov məlumat verərək qeyd etdi ki, yerin təkindən istifadə, faydalı qazıntıların çıxarılması zamanı ətraf mühitə təsirin qiymətləndirilməsi həyata keçirilməlidir. Qanun layihəsi həmçinin yerin təkindən istifadə hüququnun dayandırılması və ləğvinin əsaslarını, bu sahədə sənədlərin rəsmiləşdirilməsi qaydasını, yerin təkindən istifadə hüququ verən icazənin qüvvəsini dəqiqləşdirir. Deputatlar ilk oxunuşda müzakirəyə çıxarılan qanun layihəsinə müsbət münasibət bildirdilər.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Uşaq hüquqları haqqında", "Təhsil haqqında", "Reklam haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) edilən dəyişiklik "Uşaqların zərərli informasiyalardan qorunması haqqında" qanunun icrası ilə əlaqədardır. Gündəlikdəki "Kinematoqrafiya haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Nəşriyyat işi haqqında", "Televiziya və radio yayımı haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Telekommunikasiya haqqında" və "Teatr və teatr fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) də eyni məzmunlu dəyişikliyin edilməsi nəzərdə tutulur. Hər iki sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

"Uşaqların zərərli informasiyalardan qorunması haqqında" qanunun tələblərini pozanların cəzası İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə (birinci oxunuş) edilən dəyişiklikdə öz əksini tapır. Deputatlar bu sənədə müsbət münasibət bildirdilər.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verdi. Sənəddə bəzi hərbi qulluqçuların pensiya təminatının müəyyən olunması qaydasının dəqiqləşməsi nəzərdə tutulur. Həmin qanunda hərbi qulluqçuların yalnız Azərbaycan Respublikasının Silahlı Qüvvələrində deyil, habelə hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarında da xidmət keçməsi müəyyən olunub. Belə ki, bəzi qurumlar var ki, onları silahlı birləşmələrə aid etmək mümkün deyil, lakin həmin qurumlarda hərbi xidmət nəzərdə tutulub (Məsələn, Fövqəladə Hallar Nazirliyinin bəzi hərbi qulluqçuları, Hərbi Prokurorluğun hərbi qulluqçuları və s.). Təqdim olunan layihə belə qurumların hərbi qulluqçularının dövlət icbari tibbi sığortası və pensiya təminatının əvvəlki qaydada saxlanılmasına xidmət edir. Layihə müzakirələrdən sonra səsverməyə çıxarılaraq qəbul olundu.

İclasda həmçinin "Lisenziyalar və icazələr haqqında" (birinci oxunuş), "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) sənədlər də təsdiqləndi.

Gündəliyin sonuncu məsələsi - "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verərək dedi ki, qanun layihəsi nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsinin keyfiyyətinin yüksəldilməsi məqsədilə orqanın texniki baxış stansiyalarının maddi-texniki bazasının yüksəldilməsi və müasir avadanlıqlarla təchiz edilməsi, eləcə də işçilərin maddi təminatını yaxşılaşdırmaq üçün avtonəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsinə görə ödənilən dövlət rüsumunun 30 faizinin bu qurumun hesabına köçürülməsi üçün hüquqi və maliyyə əsaslarını müəyyən edir. Sənəd səsverməyə qoyularaq qəbul edildi və bununla da parlamentin payız sessiyasının ilk iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

## Azərbaycan-Fransa münasibətlərinin inkişafında parlamentlərarası əlaqələr mühüm rol oynayır



Sentyabrın 30-da Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Fransa Respublikası Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri və Azərbaycan üzrə sədr müavini Alen Uperin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Sədr parlamentlərimizdəki dostluq qruplarının qarşılıqlı səfərlərinin münasibətlərimizin inkişafı baxımından böyük əhəmiyyət daşıdığını bildirib. İkitərəfli əlaqələrimizin bugünkü səviyyəyə çatmasında yüksəksəviyyəli görüşlər mühüm rol oynayır. Dövlət başçılarımızın qarşılıqlı səfərləri zamanı aparılan danışıqların iki ölkə arasında əlaqələrin inkişafına böyük töhfələr verdiyini deyən Milli Məclisin Sədri bugünədək Azərbaycan ilə Fransa arasında 50-dən çox hüquqi sənədin imzalandığını qeyd edib.

Fransa Azərbaycanın ən qabaqcıl ticarət tərəfdaşlarından biridir. Cari ilin ilk 8 ayı ərzində iki ölkə arasında ticarət dövriyyəsi 630 milyon ABŞ dolları həcmində olub. Bütövlükdə ötən il bu göstərici 624 milyon təşkil edib. Bu gün ölkəmizdə 50-dən çox fransız şirkəti, o cümlədən "Total" və "Gaz de France" kimi tanınmış şirkətlər uğurla fəaliyyət göstərirlər.

Sədr siyasi, iqtisadi sahələrdəki uğurlarımızın mədəni-humanitar əlaqələrimizə də müsbət təsir etdiyini söyləyib. Bildirilib ki, 2012-ci ildən Parisdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə açılmış Azərbaycan Mədəniyyət Mərkəzi uğurla fəaliyyət göstərir. Biz tez-tez bu ölkədə Azərbaycan mədəniyyət günlərinin keçirilməsinin şahidi oluruq. Heç də təsadüfi deyil ki, Azərbaycan ilə Fransanın 14 şəhər və 1 vilayəti arasında əməkdaşlıq və dostluq sazişi imzalanıb. Azərbaycan Fransa ilə həyatın ən müxtəlif sahələrində əlaqələri genişləndirmək niyyətindədir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Fransa-Qafqaz dostluq qrupunun rəhbəri Alen Uper ölkəmizə səfərindən və səfər çərçivəsində keçirilən görüşlərdən məmnunluğunu ifadə edib. Qeyd edilib ki, Fransa Qafqazın bu bölgəsi ilə siyasi, iqtisadi və mədəni əlaqələri dərinləşdirmək niyyətindədir. Münasibətlərimizin daha da inkişaf etdirilməsində parlamentlərarası əlaqələr mühüm rol oynayır. Deputatlarımızın qarşılıqlı səfərləri, mütəmadi görüşləri ümumi məqsədlərə xidmət edir.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Cavanşir Feyziyev, Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros və digər rəsmi şəxslər iştirak ediblər.

***AZƏRTAC***
***Foto F.BAĞIROVUNDUR***

## Hesablama Palatasının əməkdaşları maliyyə auditi üzrə təlimdə iştirak ediblər

Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GIZ) təşkilatçılığı ilə "Şərq Tərəfdaşlıq ölkələrində 2030-cu il gündəliyinin məqsədlərinin həyata keçirilməsinə nəzarət üçün ali audit qurumlarının potensialının artırılması" layihəsi çərçivəsində Hesablama Palatasının əməkdaşları üçün maliyyə auditi üzrə təlim təşkil olunub. Təlim Gürcüstan Dövlət Audit Ofisinin şöbə müdiri Tornike Şermadinin təqdimatı əsasında keçirilib.

Hesablama Palatasının mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimin keçirilməsində məqsəd palata əməkdaşlarının bu sahədəki nəzəri və praktiki biliklərini daha da möhkəmləndirmək, bu sahədə Gürcüstan Dövlət Audit Ofisinin təcrübəsini paylaşmaqdır.

Təlim zamanı Avropa Auditorlar Məhkəməsinin tövsiyələri əsasında hazırlanmış maliyyə auditi təlimatına istinad edilib. Təlimin ilk günü Hesablama Palatasının auditoru Firsənd Qurbanovun açılış nitqindən sonra iştirakçılara ali audit qurumlarının beynəlxalq standartlarının təsnifatı barədə ümumi məlumat təqdim edilib, daha sonra maliyyə auditinin mərhələləri və diqqət edilməli əsas məqamlar barədə geniş məlumat verilib. Təlim müddətində praktiki məşğələlər keçirilib və iştirakçıların fəal iştirakı ilə müzakirələr aparılıb. Təlimin növbəti günlərində riskin qiymətləndirilməsi, qurum və onun daxili nəzarət mühitinin anlaşılması, fırıldaqçılıq riskinin qiymətləndirilməsi, əhəmiyyətliliyin planlaşdırılması, maliyyə auditinin miqyasının müəyyənləşdirilməsi, ümumi audit strategiyası, maliyyə hesabatlarının təsdiq edilməsi, analitik prosedurlar, audit rəyləri və auditor hesabatlarının məzmunu və bu kimi digər məsələlərə toxunulub, qarşılıqlı müzakirələr aparılıb.

Sonda Hesablama Palatasının əməkdaşlarına sertifikatlar verilib.

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin oktyabr ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**10 oktyabr 2019-cu il**

1. Biləsuvar rayonu
2. Oğuz rayonu
3. Ağdam rayonu
4. Ağstafa rayonu
5. Xocavənd rayonu

**24 oktyabr 2019-cu il**

1. Yevlax rayonu
2. Xaçmaz rayonu
3. Göyçay rayonu
4. Neftçala rayonu
5. Ucar rayonu

**Qeyd:** qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.

## DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Cəlilabad rayonunda vətəndaşları qəbul edib

Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə sentyabrın 30-da Cəlilabad rayonunda vətəndaşları qəbul edib.

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, qəbulda Cəlilabad rayon sakinləri ilə yanaşı, Yardımlı, Biləsuvar, Lənkəran, Lerik, Astara, Masallı rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər.

Görüşdə əsasən dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və digər məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciət edilib.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

## Dmitri SAVELYEV: "Azərbaycan Rusiyanın Qafqazda ən etibarlı tərəfdaşıdır"

"Azərbaycan Rusiyanın Qafqazda ən etibarlı tərəfdaşıdır və özünün hərəkətləri ilə bunu sübut edir".

AZƏRTAC xəbər verir ki, bu fikri "Sputnik-Azərbaycan" multimedia mətbuat mərkəzində Azərbaycanda Avrasiya Xalqları Assambleyası Günlərinin açılışı münasibətilə keçirilən mətbuat konfransında Rusiya Dövlət Dumasının üzvü, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev səsləndirib.

Onun sözlərinə görə, Rusiya və Azərbaycan arasında münasibətlər intensiv inkişaf edir, siyasi əlaqələr güclənir: "Biz ölkələrimiz arasında münasibətlərin necə sürətlə inkişaf etdiyini görürük, əmtəə dövriyyəsi artır. Belə ki, cari ilin ilk səkkiz ayı ərzində onun həcmi 25 faiz artıb və mütəxəssislərin qənaətinə görə, artmaqda davam edəcək".

## 1 oktyabr prokurorluq işçilərinin peşə bayramı günüdür

# Azərbaycan prokurorluğunun müasir inkişaf dövrü

### Ölkənin davamlı tərəqqisinə aparan hərtərəfli islahatlar məhkəmə-hüquq sisteminin inkişafının yeni mərhələsini şərtləndirmişdir

**Prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilmişdir.**

**İlham ƏLİYEV**

Müasir Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin uzaqgörən milli dövlətçilik ideya və düşüncələrinin tam əsaslılığının və birmənalı düzgünlüyünün triumfu və əyani sübutu olmaqla Ulu Öndərin siyasi kursunun, onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən dövrün reallıqları və gerçəklikləri nəzərə alınmaqla daha da zənginləşdirilərək həyata keçirilməsi nəticəsində uğurla inkişaf edir. Sosial-iqtisadi sahə ilə bağlı dövlət başçısının yanında keçirilmiş müşavirədə qeyd olunduğu kimi, iqtisadi vəziyyət çox müsbət olmaqla ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələr icra olunur.

Vətəndaşların rifahının daha da yüksəldilməsi istiqamətində çox önəmli kompleks tədbirlər görülməklə əməkhaqqı və pensiyalar əhəmiyyətli dərəcədə artırılmış, manatın məzənnəsi sabit olmaqla inflyasiya cəmi 2,5 faiz təşkil etmişdir. Minimum pensiyanın 70 faizdən çox, minimum əməkhaqqının isə iki dəfəyə yaxın artırılması nəticəsində alıcılıq qabiliyyətinə görə bu göstəricilər üzrə ölkənin MDB məkanında müvafiq olaraq birinci və ikinci yerlərdə qərarlaşmasını şərtləndirmişdir. Əhalinin sosial cəhətdən həssas təbəqəsi olan əlillərin, məcburi köçkünlərin, tələbə və gənclərin rifahının daha da yaxşılaşdırılması məsələlərinə xüsusi diqqət yetirilməklə, onlara ödənilən müavinət və təqaüdlər artırılaraq gəlirləri əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Ölkədə sosialyönümlü dövlət siyasətinin həyata keçirilməsində, əhalinin rifahının yüksəlməsində, sosial xidmətlərin asan, şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsində, insanları narahat edən problemlərin aradan qaldırılmasına nail olunmasında, dinlərarası və mədəniyyətlərarası münasibətlərin qurulmasında, milli-əxlaqi əsasların möhkəmləndirilməsində, idmanın və multikultural dəyərlərin, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, genişmiqyaslı proqram və layihələrin gerçəkləşdirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti və misilsiz xidmətləri xüsusi qeyd olunmalıdır.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli fərmanı məhkəmə-hüquq islahatlarının yeni mərhələsinin başlanğıcı olmuşdur. Bu fərman konseptual əhəmiyyətli proqram xarakterli mühüm dövlət sənədi olmaqla ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatların məhkəmə-hüquq sisteminin inkişafında da yeni mərhələnin başlanması və bu sahədə islahatların genişləndirilməsi zərurətindən irəli gəlmişdir. Ölkə Prezidentinin Nazirlər Kabinetinin cari ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində qeyd etdiyi kimi, fərmanın icrası bu sahədə də ciddi dönüşə səbəb olacaqdır.

Məhkəmə-hüquq islahatlarının yeni mərhələsinin əsasını qoymaqla bu sahədə strateji hədəfləri müəyyən edərək həmin istiqamətdə görülən işlər üçün "yol xəritəsi" əhəmiyyətinə malik olan bu fərmanın tələblərindən irəli gələrək prokurorluq orqanlarının üzərinə düşən mühüm vəzifələrin vaxtında və səmərəli icrasını təmin etmək məqsədilə Baş Prokurorluq üzrə 4 aprel 2019-cu il tarixli sərəncamla işçi qrupu yaradılaraq müntəzəm iş aparılmışdır.

Eyni zamanda, Prezidentin 3 aprel 2019-cu il tarixli fərmanının 2-4-cü bəndlərinin icrasını vaxtında və keyfiyyətlə təmin etmək məqsədilə Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası, Ədliyyə Nazirliyi, Ali Məhkəmə və Baş Prokurorluğun 5 aprel 2019-cu il tarixli sərəncamı ilə həmin qurumların əməkdaşlarından ibarət tərkibdə birgə işçi qrupu yaradılaraq intensiv fəaliyyət göstərmişdir.

Fərmanın 2-ci hissəsinin icrası üzrə müvafiq təhlillər aparılmaqla təkliflərin hazırlanması məqsədilə birgə işçi qrupu tərəfindən qabaqcıl xarici ölkələrin qanunvericilik və məhkəmə təcrübəsi öyrənilməklə, yeni və mütərəqqi hüquq normalarının milli qanunvericiliyə implementasiya imkanları nəzərdən keçirilərək Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar və Cəzaların İcrası məcəllələrinə 400-ə yaxın dəyişikliyin edilməsini nəzərdə tutan qanun layihələri hazırlanmışdır. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli fərmandan irəli gələn məsələlərlə bağlı məhkəmələrdə dövlət ittihamının müdafiəsinin səmərəliliyinin daha da artırılması məqsədilə cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının məhkəməyə daxil olması, onların hazırlıq iclasları, həmin işlərin məhkəmədə baxılmasının nəticələrinin elektronlaşdırılmasını əhatə edən, cinayət işlərinə nəzarət, sürətli axtarış, cinayət işi üzrə vurulmuş ziyanın məbləğinin, cəzaların hədlərinin müəyyən olunması, cəzanın cinayətlərin məcmusu üzrə hesablanması, qısa müddətdə ümumiləşdirmələr aparılması və digər imkanları nəzərdə tutan "Elektron Dövlət İttihamı" proqramı hazırlanaraq cari il sentyabr ayının 24-də istifadəyə verilmişdir. Bu proqrama "Elektron Cinayət" proqramı inteqrasiya olunmuşdur ki, həmin funksiya cinayət işinin nömrəsinin daxil edilməsi ilə "Elektron Cinayət" proqramına daxil edilmiş cinayət işi materialları ilə tanış olmaq imkanı yaradır.

"Elektron Cinayət" proqramı 2015-ci ildə istifadəyə verildikdən sonra indiyədək 52 mindən çox sənəd, o cümlədən 7 minə yaxın cinayət işi və 45 mindən çox cinayət xarakterli materiallar qeydiyyatdan keçirilmişdir. Bu da prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsini təsdiq edən göstəricilərdən biridir. Artıq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi və Bakı Şəhər Prokurorluğunun İstintaq idarəsi də daxil olmaqla "Elektron Cinayət" proqramından tam istifadə edilməsi təmin olunmuşdur.

"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli fərmanla cinayət mühakimə icraatında dövlət ittihamçıları qarşısında qoyulmuş vəzifələrin daha səmərəli həyata keçirilməsi, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə Baş Prokurorluq üzrə Bakı Şəhər Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsində 2 böyük və 23 prokuror vəzifələrinin yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən təcrübəli prokurorluq işçiləri ilə komplektləşdirilməsi üçün müsabiqə elan olunmaqla bu prosesin həyata keçirilməsi üçün Müsabiqə Komissiyası yaradılmışdır. Komissiyanın üzvləri olan prokurorluq işçiləri ilə yanaşı, onun işində Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin müvafiq üzvləri iştirak etməklə keçirilmiş müsabiqənin yekununda yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən təcrübəli prokurorluq işçiləri seçilmiş, onlardan dövlət ittihamının müdafiəsi sahəsində iş təcrübəsi olmayanlar Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən birgə təşkil olunmuş müvafiq ixtisasartırma kursu keçmişlər. Müsabiqə nəticəsində müvəffəqiyyət qazanmış prokurorluq işçiləri Bakı Şəhər Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin müvafiq vəzifələrinə təyin olunmuşlar.

Ölkə Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş, prokurorluğun daha da təkmilləşərək müasirləşdirilməsi dövrünün əsasını qoymuş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın icrası prokurorluğun hüquq sisteminin inkişafı prosesində rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətinin təşkili, insan hüquq və azadlıqlarının qorunması, fəaliyyətində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə edilməsi, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, bu dövlət orqanının fəaliyyətinin bütün istiqamətləri üzrə peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki təminatının yaxşılaşdırılması sahələrində ciddi nailiyyətlər əldə edilmişdir.

Tarixi inkişaf baxımından çox da böyük olmayan müddətdə respublikamızda məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi, hüquq sisteminin inkişafı istiqamətində mühüm tədbirlər görülməklə prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün yüksək tələblərinə uyğun qurulması üçün son illər ərzində daha böyük işlər görülmüşdür. İslahatların həyata keçirilməsi, fəaliyyətdə səmərəliliyin artırılması üçün təkmilləşmənin aparılmasının, bütövlükdə müasirləşmənin sonu olmadığından bu proses bu gün də intensiv şəkildə davam etməkdədir.

## Prokurorluq işçilərinin peşə bayramları və yubileyləri yüksək dövlət səviyyəsində qeyd olunur

Bu gün Azərbaycanda milli prokurorluq orqanlarının yaranmasının 101-ci ili tamam olur. Bu gün prokurorluq işçiləri, prokurorluğun veteranları, bütün hüquq ictimaiyyəti üçün əlamətdar bir hadisə kimi böyük ruh yüksəkliyi ilə qeyd olunur.

Qürurverici tarixi həqiqətdir ki, 1918-ci il may ayının 28-də Şərqdə ilk dəfə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti bəşəriyyətin inkişaf salnaməsində yeni parlaq bir səhifə açmaqla xalqımızın dünya dövlətçilik irsinə, demokratik dövlət quruculuğu prosesinə mühüm töhfəsi olmuşdur. Prokurorluq hər bir demokratik dövlətin zəruri atributlarından biri olduğundan Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun ilk aylarında həyata keçirilmiş dövlət orqanlarının strukturunun yaradılması prosesi çərçivəsində qəbul edilmiş ən mühüm qərarlardan biri də məhz prokurorluq orqanlarının təsis edilməsi ilə bağlı olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluğun təsis edilməsi yalnız o zaman üçün deyil, həmçinin sonrakı dövrlər üçün, bütövlükdə milli prokurorluq orqanlarımızın hazırkı yüksək inkişaf səviyyəsində formalaşdırılmasının əsasının qoyulması baxımından tarixi əhəmiyyətə malik hadisədir. Lakin Azərbaycan Prokurorluğunun ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında çox əhəmiyyəti olan, konstitusion statuslu, yüksək dünya standartlarına və müasir beynəlxalq tələblərə uyğun sivil təsisat kimi formalaşması yalnız Ümummilli Lider Heydər Əliyev tərəfindən hazırlanaraq həyata keçirilməyə başlanılmış, sonradan onun layiqli davamçısı, müdrik və uzaqgörən dövlət başçısı İlham Əliyev tərəfindən yeni dövrün tələbləri nəzərə alınmaqla müasir müstəvidə uğurla reallaşdırılan hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi sayəsində mümkün olmuşdur.

Milli prokurorluq orqanları 1918-ci ildə yaranaraq bu dövlət təsisatının tarixinin həmin vaxtdan hesablanmasına, idarəetmənin digər sahələrində müvafiq təcrübənin mövcud olmasına baxmayaraq, prokurorluq işçilərinin peşə bayramı çox illər qeyd olunmamışdır. Məhz Ümummilli Lider Heydər Əliyevin prokurorluğa və prokurorluq işçilərinə diqqətinin ifadəsi olan və tarixi gerçəkliyi əbədiləşdirən, 17 iyul 1998-ci il tarixli sərəncamı ilə milli prokurorluq orqanlarının yarandığı gün - oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilməklə qeyd olunmağa başlanmışdır. Prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi prokurorluq işçilərinə yüksək dövlət qayğısının təzahürü olmaqla prokurorluq orqanlarının fəaliyyətinə böyük dəyər verilməsinin təsdiqidir.

Ümummilli Lider prokurorluq işçilərinin peşə bayramını təsis etdikdən sonra prokurorluq işçilərinin hər il bu günün təntənəli şəkildə qeyd olunması ənənəsi yaranmışdır. Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr olunmuş 28 noyabr 1998-ci il tarixli yığıncaqda Ümummilli Lider dərin məzmunlu nitq söyləyərək prokurorluq işçiləri üçün önəmli olan məsələlərə toxunmuş, onlara çox dəyərli tövsiyələr verərək prokurorluq orqanlarının ümdə vəzifələrini qeyd etmişdir. Heydər Əliyevin qeyd etdiyi dərin mənalı *"Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız"* kəlamı prokurorluq işçilərində böyük ruh yüksəkliyi və iftixar hissi yaratmaqla yanaşı, onları öz fəaliyyətlərinə daha yüksək tələbkarlıqla və məsuliyyətlə yanaşmağa səfərbər edərək gündəlik fəaliyyət şüarına çevrilmişdir.

2018-ci ildə milli prokurorluq orqanlarının dövlətçilik tariximiz, ölkənin hüquq sisteminin, hüquq mühafizə orqanlarının və məhkəmə hakimiyyətinin formalaşdırılması və inkişaf tarixi üçün əlamətdar hadisə olan 100 illik yubileyi xüsusi təntənə ilə qeyd olundu. Azərbaycan Respublikasının 31 may 2018-ci il tarixli qanunu ilə "Azərbaycan prokurorluğunun 100 illiyi (1918-2018) Azərbaycan Respublikasının yubiley medalı" təsis edilməklə onun Əsasnaməsinin təsdiq edilməsi prokurorluq orqanlarına dövlət başçısı səviyyəsində göstərilən qayğının növbəti təsdiqi olmuşdur. Yubiley medalı ilə prokurorluq orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, xidmətdə yüksək nəticələr əldə edən, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində peşəkarlığı ilə fərqlənən, uzun müddət qüsursuz xidmət edən prokurorluq əməkdaşları və veteranları ilə yanaşı, prokurorluq orqanlarının inkişafında xüsusi xidmətləri olan digər şəxslər də təltif olunmuşlar.

## Cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılır, sabitlik təmin olunur

Prokurorluq orqanlarının daxili işlər, ədliyyə, dövlət təhlükəsizliyi və məhkəmə orqanları ilə əlaqəli şəkildə birgə fəaliyyətinin nəticəsi olaraq ölkədə dayanıqlı ictimai-siyasi sabitlik qorunaraq dövlət maraqlarının müdafiəsi, cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılmaqla kriminogen durumun stabilliyi və bütün mənfi təzahürlərin qarşısının alınması təmin edilir.

Görülmüş səmərəli birgə tədbirlərin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və xarakterində müsbət cəhətlər möhkəmlənmiş, cari ilin birinci yarımilində qeydə alınmış bir sıra cinayət növlərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə azalmışdır.

Əvvəlki illərdə bağlı qalmış ağır və xüsusilə ağır cinayətlərin, qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə və adam öldürməyə cəhd cinayətlərinin açılması istiqamətində görülən məqsədyönlü intensiv istintaq tədbirləri, Baş Prokurorluqda bu işlərə rəhbərliyi həyata keçirən idarənin zona prokurorlarının yerlərə ezam olunaraq istintaqın planlaşdırılmasında və təşkilində əməli kömək göstərmələri sayəsində cari ilin birinci yarımilinin göstəriciləri ötən ilin müvafiq dövrünə nisbətən xeyli artmışdır.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi dövlət siyasətinin və strateji inkişaf konsepsiyasının prioritetlərinə uyğun olaraq ölkədə korrupsiyaya qarşı ardıcıl və sistemli mübarizə aparılmaqla, bu sosial bəlaya qarşı əks-təsir mexanizmlərindən daha geniş istifadə edilməklə onun baş verməsinə səbəb olan və şərait yaradan halların aradan qaldırılması istiqamətində mühüm islahatlar, institusional, struktur və təşkilati tədbirlər davam etdirilmişdir. Korrupsiyaya qarşı mübarizə prokurorluğun fəaliyyətinin ən önəmli istiqaməti olaraq bu sahədə səmərəliliyinin artırılması və daha intensiv tədbirlərin həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilməklə işin effektivliyinin yüksəlməsinə nail olunmuşdur.

Prokurorluq orqanlarına dövlət tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində göstərilən etimadın yüksəlməsinin nəticəsi olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə yeni vəzifələr həvalə edilməklə Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 2018-ci il tarixli fərmanı ilə bu qurumun Əsasnaməsində dəyişiklik edilərək ona cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin mərkəzləşmiş statistikasının elektron formada aparılmasını təşkil etmək, həmin cinayətlərlə bağlı statistik məlumatların toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyətini təmin etmək tapşırılmışdır. Prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin səmərəli icrasının həyata keçirilməsi ilə bağlı zəruri məsələlərin tənzimlənməsi məqsədilə Baş Prokurorluq üzrə 27 noyabr 2018-ci il tarixli əmrlə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin vahid məlumat bazasına dair" Təlimat və "Təqdim edilməli olan məlumatların Siyahısı" təsdiq edilmişdir.

Fərmanın icrası ilə bağlı görülən işlər çərçivəsində 2019-cu il sentyabrın 7-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Baş Prokurorluğun aidiyyəti struktur qurumlarının, o cümlədən Daxili İşlər, Vergilər, Fövqəladə Hallar və Ədliyyə nazirlikləri, habelə Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin nümayəndələrinin iştirakı ilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi və əlaqəli cinayətlərlə bağlı statistik məlumatların bir mərkəzdə toplanmasını təmin edəcək Vahid İnformasiya Bazasının təqdimat mərasimi keçirilmişdir. Vahid İnformasiya Bazası statistik məlumatların vahid mərkəzdə toplanmasını təmin etməklə yanaşı, əldə edilmiş informasiyanın müxtəlif parametrlər üzrə emalına imkan verir. Belə ki, proqramın geniş texniki imkanları qeyd edilən növ cinayətlərin ümumi dinamikasını izləməklə yanaşı, toplanan məlumatlar əsasında müxtəlif istiqamətlər üzrə analitik təhlillər aparılmasına və son nəticədə cinayətkarlığın bu növləri ilə mübarizə işinin daha keyfiyyətli təşkilinə şərait yaradacaqdır.

Korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanlarına inamın artmasının nəticəsi olaraq ötən ilin peşə bayramından hazırkı dövrədək olan müddətdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə vətəndaşların 8118 müraciəti daxil olmuşdur. Onlar "Qaynar xətt" əlaqə mərkəzi üzrə müraciətlərin 3302-si nəzarətdə saxlanılmaqla aidiyyətı üzrə nazirlik, komitə və təşkilatlara göndərilmiş, 117-si prokurorluğun müvafiq struktur qurumlarında, 217-si isə Baş İdarədə araşdırılmış, korrupsiya ilə əlaqədar olmayan məsələlərlə bağlı 46 müraciət üzrə vətəndaşlara hüquqları izah edilmişdir. Həmin müraciətlərin 27-si üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi başlanılaraq istintaq aparılmışdır. Həmçinin əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa olunmuş və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədilə müvafiq təşkilatlara təqdimatlar göndərilmişdir.

## Gənc kadrların müsabiqə əsasında təyinatı təkmilləşməyə rəvac vermişdir

Prokurorluq orqanlarının inkişafı, yüksək beynəlxalq standartlar səviyyəsində təkmilləşərək hazırkı statusa malik dövlət təsisatı kimi formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Kadr siyasətinin həyata keçirilməsi, yüksək ixtisaslı, peşəkar milli kadrların yetişdirilməsi, onların irəli çəkilməsi məsələlərinə hər zaman xüsusi əhəmiyyət verən Ulu Öndər 19 iyun 2001-ci il tarixli fərmanı ilə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə" təsdiq edərək prokurorluq orqanlarına işə qəbulun ən sivil və demokratik üsul olan müsabiqə yolu ilə, şəffaf prosedurlar əsasında aparılması qaydalarını müəyyən etmişdir. Prokurorluq orqanlarına işə qəbulun müsabiqə əsasında həyata keçirilməsi prokurorluğun kadr tərkibinin hərtərəfli, savadlı və yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvərliyi və dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsinə şərait yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanları qarşısında müəyyən etdiyi, dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesinin uğurla həyata keçirilməsi üzrə zəruri tədbirlər görülərək gənc hüquqşünasların prokurorluğa işə qəbulu ilə bağlı mütəmadi olaraq müsabiqələr keçirilmişdir. Bu istiqamətdə görülən işlər prokurorluğun inkişafının sürətlənməsində əhəmiyyətli olmaqla, fəaliyyətimizin daha səmərəli qurulmasına imkan yaratmışdır. Bununla əlaqədar olaraq dövlət başçısı prokurorluq orqanlarına müasir dünyagörüşlü, bilikli və dövlətçilik ideyalarına sadiq gənc hüquqşünasların qəbulunun prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsinə təkan verdiyini vurğulamışdır.

Gənclərə hərtərəfli diqqət və qayğının göstərilməsi, onların sosial-iqtisadi, elmi-mədəni və digər sahələrdə irəli çəkilməsi, potensiallarından daha geniş istifadə edilməsi ölkədə həyata keçirilən sosialyönümlü dövlət siyasətinin tərkib hissəsidir.

2002-ci ildən başlayaraq Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə prokurorluq orqanlarına qəbulla bağlı 19 müsabiqə keçirilmişdir. 2018-ci ildə müsabiqə yolu ilə 85, ümumilikdə isə uğur qazanmış 873 gənc hüquqşünas prokurorluq orqanlarına qulluğa qəbul edilmişdir ki, onlar da hazırda prokurorluq işçilərinin 67 faizini təşkil edir. Diqqətəlayiq haldır ki, müsabiqə yolu ilə qulluğa qəbul olunmuş işçilərin bir çoxu yuxarı təsnifat vəzifələrə irəli çəkilmiş, o cümlədən 22 nəfəri ilk dəfə olaraq müstəqil rayon, şəhər və ərazi hərbi prokuroru vəzifələrinə təyin edilmişlər.

Ötən illərin təcrübəsi nəzərə alınaraq, müsabiqənin sənəd qəbulu mərhələsinin sadələşdirilməsi məqsədilə Baş Prokurorluq üzrə 7 sentyabr 2015-ci il tarixli əmrlə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları"nda dəyişikliklər edilmişdir.

2019-cu il fevral ayının 18-də prokurorluq orqanlarına işə qəbul olunmaq istəyən şəxslər üçün 80 vakant ştat vahidi üzrə elan edilmiş növbəti 20-ci müsabiqə çərçivəsində sənədlərin qəbulu prosesi 2019-cu ilin avqust ayının 2-də başa çatmışdır. Sənəd qəbulu mərhələsinin sadələşdirilməsi nəticəsində müsabiqə şərtlərinə cavab verən 301 namizədin (o cümlədən 39 qadın) sənədləri qəbul edilmişdir. Avqust ayının 9-da müsabiqənin ilkin mərhələsi olan test imtahanı, 21-də isə ikinci - yazılı imtahan mərhələsi keçirilmişdir.

Baş Prokurorluğun Müsabiqə Komissiyası Dövlət İmtahan Mərkəzi ilə birlikdə imtahanın birinci - test mərhələsinin və komissiya tərəfindən yazılı mərhələsinin tam aşkarlıq şəraitində, şəffaf üsullarla, obyektiv prosedurlar əsasında və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün bütün zəruri tədbirləri təmin etmişdir. Vahid auditoriyada - Bakı İdman Sarayında keçirilən imtahanı 17 dövlət qurumunun, qeyri-hökumət və beynəlxalq təşkilatın, həmçinin 8 kütləvi informasiya vasitəsinin nümayəndələri müşahidə etmişlər.

İndiyədək ictimai köməkçi qismində fəaliyyət göstərməsi ilə bağlı 145 tələbənin müraciəti qeydiyyata alınmış və onlardan 100 nəfəri prokurorluğun müvafiq struktur qurumlarında fəaliyyətə qəbul olunmuşdur. Müraciət etmiş gənclərin əksəriyyəti Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrinin, bir qismi isə xarici dövlətlərin ali təhsil müəssisələrinin tələbəsidir.

## Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinə diqqət və qayğı daha da artırılmışdır

Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbuluna xüsusi qayğı göstərilməklə, daxil olan hər bir ərizə və şikayətlərə diqqətlə yanaşılır. Bu da ölkədə dövlət başçısı tərəfindən uğurla həyata keçirilən siyasətin tələblərindən irəli gəlir. Müraciətlərə baxılması və vətəndaşların qəbulunun təşkili və həyata keçirilməsi üzrə fəaliyyət ölkə Prezidentinin rəhbər göstəriş və tövsiyələrinə uyğun olaraq qurulmaqla, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun, digər qanunvericiliyin tələblərinə tam və dəqiq əməl edilməklə aparılır.

Həmin sahədə fəaliyyətin təkmilləşdirilməsinə, aşkarlığın və operativliyin artırılmasına önəmli əhəmiyyət verilərək bu məsələlər daim diqqət mərkəzində saxlanılmaqla, Azərbaycan Respublikasının Baş Prokurorluğunda prokurorluğun fəaliyyət istiqamətləri üzrə vətəndaşların müraciətlərinin qəbulu və qeydə alınması işinin daha səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə "Çağrı Mərkəzi"nin yaradılması prosesi yekunlaşdırılaraq qısa müddətdə fəaliyyətə başlaması nəzərdə tutulmuşdur. "Çağrı Mərkəzi" həftənin bütün günləri 24 saat ərzində fasiləsiz fəaliyyət göstərməklə vətəndaşlara şəhərlərarası, respublikadaxili və mobil telefonlar vasitəsilə ödənişsiz zəng etmək imkanı yaradaraq, daxil olan hər bir müraciətin və zənglər zamanı aparılan telefon danışıqlarının səs yazılarının xüsusi proqram vasitəsilə qeydə alınması, hər bir daxil olmuş müraciət üzrə yoxlama aparılmaqla zəruri tədbirlərin görülməsi təmin ediləcəkdir.

Baş Prokurorluqda son bir il ərzində 1489 vətəndaşın qəbulu həyata keçirilmiş, o cümlədən 213 nəfər Baş Prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilmişdir. Eyni zamanda, ölkənin müxtəlif bölgələrində Baş Prokurorluğun rəhbərliyi tərəfindən mütəmadi olaraq əhalinin səyyar qəbulu keçirilməklə vətəndaşların qaldırdıqları məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə görülən tədbirlər müntəzəm xarakterli olmaqla, cari ilin ötən doqquz ayı ərzində bölgələrdə Baş Prokurorluğun rəhbərliyi tərəfindən keçirilmiş on səkkiz səyyar qəbul zamanı 300 vətəndaş qəbul edilmiş, onlardan daxil olmuş 261 müraciətdən 251-i prokurorluğun icraatına qəbul edilmiş, 10-u isə baxılması üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir. Həmin qəbullar zamanı vətəndaşlardan daxil olmuş müraciətlərin hərtərəfli araşdırılması və qısa müddətdə qanuni həlli üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

*Bir sözlə, prokurorluq işçiləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosialyönümlü dövlət siyasətini tam dəstəkləyərək, bundan sonra da ölkənin davamlı tərəqqisinin təmin edilməsi üçün həyata keçirilən hərtərəfli islahatlar konsepsiyasının reallaşdırılmasına, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə, ölkənin hüquq sisteminin möhkəmləndirilməsinə və hüquqi dövlət quruculuğu prosesinin sürətləndirilməsinə, prokurorluğun fəaliyyətinin ən yüksək dünya standartları səviyyəsində təkmilləşdirilməsinə çalışaraq, üzərlərinə düşən vəzifələri yüksək məsuliyyət hissi ilə icra etməklə dövlət müstəqilliyimizin və suverenliyimizin etibarlı müdafiəsinə, ictimai-siyasi sabitliyin qorunmasına, qanunçuluğun və təhlükəsizliyin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının təmin edilməsinə xidmət edəcəklər.*

**Zakir QARALOV,**
***Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri***

# *Elmar MƏMMƏDYAROV:* "Təcavüzə və digər qanunazidd hərəkətlərə göz yumulursa, dinc, ədalətli və firavan dünyanı təmin etmək çox çətindir"

*Əvvəli 1-ci səh.*

Müharibə və insan əziyyətlərinin qarşısını almaq üçün təsis edilmiş Birləşmiş Millətlər Təşkilatı bütün üzvlərini ümumi qayda əsaslı bir nizamla bağlayaraq sülh və təhlükəsizlik problemlərinin həllində iştirak edənlərin hamısının təşkilatın məqsəd və prinsiplərinin vahid tətbiqini təmin etməkdə mərkəzi rol oynayır. Birləşmiş Millətlər Təşkilatının bu roluna dəstək sülhün, sabitliyin və davamlı inkişafın qorunmasında vacibdir.

Nazir deyib ki, müasir beynəlxalq münasibətlər sistemində çoxtərəfliliyin ən güclü tərəfdarlarından biri Qoşulmama Hərəkatıdır. Biz Qoşulmama Hərəkatının Dövlət və Hökumət Başçılarının növbəti Zirvə toplantısının 2019-cu ilin 25-26 oktyabr tarixlərində Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsini səbirsizliklə gözləyirik. Qoşulmama Hərəkatı tarixboyu Bandunq Prinsiplərinə sadiq qalmaqla beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmlənməsində əsas rol oynayıb. Azərbaycanın sədrliyi 2020-ci ildə 65 illik yubileyini qeyd edəcək Hərəkatın təməl prinsiplərinin inkişafına daha bir təkan verəcək.

Elmar Məmmədyarov qeyd edib ki, 2030 Dayanıqlı İnkişaf Gündəliyinin həyata keçirilməsi yolunu davam etdirərək üzərimizə götürdüyümüz öhdəlikləri nə dərəcədə yerinə yetirdiyimizi müəyyənləşdirmək üçün mütəmadi olaraq özümüzü sınamalıyıq. Müvafiq resurslarla dəstəklənən davamlı səylər xalqımızın parlaq gələcəyini və heç kimin geridə qalmamasını təmin etmək üçün vacibdir. Dünən Azərbaycan 77 Qrupunun (G77) üzvü oldu və ölkəmiz iqtisadi əməkdaşlığı təşviq etmək yolu ilə bu qurumun dayanıqlı inkişafı təmin etmək işinə fəal şəkildə töhfə verməyə hazırdır. Azərbaycan davamlı iqtisadi artımını qoruyub saxlayıb və vətəndaşlarımızın həyat standartlarının yaxşılaşdırılması istiqamətində ardıcıl səylərini davam etdirib. İqtisadi inkişaf proqramlarının uğurlu icrası sayəsində son 15 ildə Azərbaycan iqtisadiyyatı ümumi daxili məhsulun 3,3 dəfə artması ilə dünya miqyasında rekord səviyyədə inkişaf edib. Həmin dövrdə sənaye istehsalı 2,6 dəfə, ixrac 4,7 dəfə, valyuta ehtiyatları isə 24 dəfə artaraq 45 milyard dollaradək təşkil edib.

Sosial sahə hər zaman diqqət mərkəzində olub. Bu il hökumət 10 milyonluq əhalisi olan ölkənin 4 milyondan çox insanını əhatə edən sosial paket qəbul etdi. Son 15 ildə sosial sahəyə qoyulan investisiyalar ölkədə yoxsulluq səviyyəsinin 2004-cü ildəki 49 faizdən 2019-cu ildə, demək olar ki, 5 faizə endirilməsi ilə nəticələndi. Eyni müddətdə işsizlik səviyyəsi 10,6 faizdən 5 faizdən də aşağı endi. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən çox islahatlar həyata keçirən 10 ölkəsinin siyahısına daxil edilib. Ölkədəki əlverişli iş mühiti son 15 ildə Azərbaycan iqtisadiyyatına təxminən 250 milyard dollara yaxın investisiya gətirdi, bunun da yarısı xarici sərmayələrin payına düşür.

Azərbaycan bağlılığı təşviq etməklə regional inkişaf səylərinə öz töhfəsini verir. Qitələrin bir araya gəlməsində, qarşılıqlı faydalı əməkdaşlıq üçün bir platformanın yaradılmasında mühüm rol oynayır. Dənizə çıxışı olmayan ölkə olmasına baxmayaraq, Azərbaycan beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilib.

Azərbaycan mədəni müxtəlifliyin təbliğinə xüsusi əhəmiyyət verir. Azərbaycanda bütün etnik və dini qruplar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Son illərdə bir sıra qlobal tədbirlərə evsahibliyi etmişik, dialoqun və qarşılıqlı anlaşmanın təşviqinə yönəlmiş bir sıra təşəbbüslər irəli sürmüşük. Bu təşəbbüslər arasında Baş Assambleya və Baş katib tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi üçün başlıca qlobal platforma kimi tanınan Mədəniyyətlərarası Dialoq üzrə Dünya Forumunu qeyd etmək olar.

Avropa ölkələri arasında ən gənc yaş bölgüsünə sahib olaraq hökumət gələcək nəsillərə keyfiyyətli təhsil və layiqli iş imkanları təklif edərək onların potensialının tam reallaşmasına xüsusi diqqət yetirir. Azərbaycan Respublikasının 2019-2030-cu illər üçün yeni məşğulluq strategiyasında 2030-cu il üçün 13 hədəf müəyyənləşdirilib. Bu hədəflər gənclər arasında işsizliyin azaldılması, peşə təhsili və təlimlərin yaxşılaşdırılması və kiçik və orta müəssisələrdə məşğulluğun artırılması məqsədlərini güdür.

Azərbaycan gender bərabərliyini təmin etmək və qadınlara ictimai və sosial həyatda səlahiyyətlər vermək üçün öz səylərini davam etdirir. Bu xüsusda, BMT Təhlükəsizlik Şurasının qadınlar, sülh və təhlükəsizlik mövzusunda 1325 saylı qətnaməsinin icrası üçün hazırda milli fəaliyyət planını hazırladığımızı məmnunluqla qeyd etmək istərdim.

Yeni yaranan donor ölkə olaraq Azərbaycan Heydər Əliyev Fondu və Azərbaycan Beynəlxalq İnkişaf Agentliyi (AIDA) vasitəsilə bir sıra ölkələrə beynəlxalq humanitar və inkişaf yardımlarını göstərməkdə davam edir. İnkişaf etməkdə olan və ən az inkişaf etmiş ölkələrin ehtiyaclarının ödənilməsinə xüsusi diqqət yetirilir.

Hər bir qasırğa, böyük yanğın və dəniz səviyyəsinin bir santimetrlik qalxması ilə iqlim dəyişikliyinin mövcud təhlükəsi daha da aktuallaşır. Azərbaycan iqlim dəyişikliyinin təsirlərinə çox həssasdır və ölkə artıq mənfi nəticələrlə, məsələn, sel, quraqlıq, istilik və digərləri ilə üzləşir. Biz iqlim fəaliyyətinə dair böyük beynəlxalq müqavilələrə, o cümlədən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına, Kioto Protokoluna və Paris Sazişinə qoşulmuşuq. Milli siyasət və strategiyalar həmin beynəlxalq sənədlərə uyğunlaşdırılıb. Hökumət karbon qazı tullantılarını minimum səviyyəyə çatdırmaq üçün vacib addımlar atıb və onu 2030-cu ilə qədər 35 faiz azaldacağına söz verib.

Elmar Məmmədyarov bildirib ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı məlum təcavüzü Azərbaycan ərazilərinin təqribən beşdəbir hissəsinin işğalı və bir milyondan çox azərbaycanlının evlərindən və mülklərindən didərgin düşməsi ilə nəticələndi. Həll edilməmiş münaqişə beynəlxalq və regional sülhə və təhlükəsizliyə xələl gətirməkdə davam edir. Keçən il baş tutmuş ümumi müzakirələrdən bəri münaqişənin siyasi həllində heç bir irəliləyiş əldə edilməyib.

Son iki ildə iki ölkə rəhbərləri arasında birbaşa təmaslar və xarici işlər nazirlərinin görüşlərinə baxmayaraq, Ermənistan rəhbərliyi tərəfindən həqiqi marağın olmaması münaqişənin nizamlanması prosesinə mane olur. Əksinə, Yerevan həm sözlə, həm də əməlləri ilə prosesi ləngidir və münaqişənin tezliklə sülh yolu ilə həlli səylərinə zərbə vurur. Ermənistan baş naziri və hökumət üzvlərinin bu yaxında səsləndirdikləri bəyanatlar onların beynəlxalq hüquqa və Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə zidd olaraq ilhaqçı siyasət yürütdüklərinə dair heç bir şübhəyə yer qoymur.

Son zamanlar verdiyi açıqlamalarda, o cümlədən BMT Baş Assambleyasının ümumi müzakirələrində Ermənistanın baş naziri hökumətinin danışıqlardakı strategiyasını, yəni, "müharibənin nəticələrini qorumaq" məqsədini açıq şəkildə bəyan etdi. Əslində Ermənistan rəhbərliyinin niyyəti qeyri-qanuni güc tətbiqi vasitəsilə və beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranan və insanlığa qarşı ağır cinayətlər, müharibə cinayətləri, soyqırımı aktları və işğal olunmuş ərazilərdə yaşayan bütün qeyri-ermənilərin tam etnik təmizlənməsi ilə müşayiət olunan qəbuledilməz status-kvo vəziyyətinin müdafiəsidir.

Yekdilliklə qəbul edilmiş 822 (1993), 853 (1993), 874 (1993), 884 (1993) saylı qətnamələrində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Azərbaycana qarşı güc tətbiqini və onun ərazilərinin işğalını, mülki şəxslərə qarşı hücumları, yaşayış ərazilərinin bombalanmasını pisləyib, həmçinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörməti, beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazilərin əldə edilməsi üçün güc tətbiqinin qəbuledilməz olduğunu bir daha təsdiq edib. Ərazi iddiaları və zorakı addımlara cavab olaraq, Təhlükəsizlik Şurası öz qətnamələrində Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq edib və işğal olunmuş bütün ərazilərdən işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Baş Assambleyanın qətnamələri və digər mötəbər beynəlxalq təşkilatların çoxsaylı qərar və sənədləri eyni səciyyə daşıyırdı. Lakin Təhlükəsizlik Şurasının əsas tələbləri hələ də yerinə yetirilməyib. Əksinə, münaqişənin siyasi həlli üzrə davam edən səylər kontekstində beynəlxalq ictimaiyyət tərəfindən ilkin xəbərdarlığa və pislənilməsinə baxmayaraq, Azərbaycanın işğal olunmuş ərazilərinin demoqrafik, mədəni və fiziki xüsusiyyətlərinin dəyişdirilməsi istiqamətində məqsədyönlü fəaliyyət davam etdirilir. Bu fəaliyyətlərə, o cümlədən işğal olunmuş ərazilərdə məskunlaşdırma, tarixi və mədəni irsin dağıdılması və mənimsənilməsi, mülkiyyətin, təbii ehtiyatların və digər sərvətlərinin istismarı və qanunsuz dövriyyəsi aiddir. Bu addımlar Müharibə şəraitində mülki şəxslərin müdafiəsi üzrə 1949-cu il Dördüncü Cenevrə Konvensiyasını və 1977-ci il Birinci Əlavə Protokolu açıq şəkildə pozur və müharibə cinayətlərini, həmçinin beynəlxalq hüquq çərçivəsində və dövlət və fərdlərin cinayət məsuliyyətini ehtiva edir.

Tamamilə aydındır ki, bu siyasət və təcrübə münaqişənin sülh yolu ilə həllinə nail olmaq məqsədlərinə uyğun gəlmir və BMT Nizamnaməsində əks olunduğu kimi, dövlətlərarası münasibətlərdə qaydalara əsaslanan və sivil dövlətlərarası münasibətlərin dəyərlərini, norma və prinsiplərini müdafiə etmək üçün BMT və beynəlxalq ictimaiyyətin təxirəsalınmaz tədbirlərini tələb edir.

Davam edən sülh prosesinin əsas məqsədi Ermənistan tərəfindən başlanılan müharibənin nəticələrinin aradan qaldırılması və beləliklə də Azərbaycanın işğal olunmuş bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılması, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və zor tətbiqi ilə qovulmuş şəxslərin öz evlərinə və mülklərinə geri qayıtmasının təmin edilməsidir. Bu məqsədə nail olmaq mütləqdir və kompromis təşkil etmir.

Azərbaycan münaqişənin tezliklə siyasi yolla həllinə sadiqdir. Eyni zamanda, danışıqlar sonsuzadək davam edə bilməz və güc tətbiqi, işğal və etnik təmizləmə nəticəsində yaranmış vəziyyətin davam etməsinə və saxlanılmasına xidmət etməməlidir. Həmçinin BMT Nizamnaməsi və beynəlxalq hüquqda nəzərdə tutulan özünümüdafiə hüququnun tətbiqinə xələl gətirməməlidir.

Beynəlxalq ictimaiyyəti və öz xalqını yanıltmaq səylərinə vaxt itirmək əvəzinə, Ermənistan dayanıqlı olmayan status-kvo vəziyyətini uzatmaq üçün faydasız cəhdlərindən əl çəkməli və beynəlxalq öhdəliklərinə əməl etməlidir. Öz destruktiv siyasi gündəliyinin perspektivlərinin olmadığını Yerevan nə qədər tez başa düşərsə, bir o qədər tez bölgənin bütün əhalisi sülh, sabitlik və əməkdaşlıqdan faydalanacaq və Ermənistanın bölgədə yürütdüyü təcavüzkar və düşmən siyasəti səbəbindən üzləşdiyi ciddi siyasi, iqtisadi və sosial problemləri dəf etmək şansları daha çox olacaq.

# İslahatlar dərinləşir, reytinq yüksəlir, nüfuz artır

*Əvvəli 1-ci səh.*

Hesabat xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda ("Qlobal Rəqabətlilik Hesabatı", "Qlobal İnnovasiyalar İndeksi", "İqtisadi Azadlıq İndeksi", "Qlobal İmkanlar İndeksi" və s.) baza rolunu oynayır.

Əlbəttə ki, bu hesabatlarda Azərbaycanın mövqeyinin yaxşılaşması birbaşa 2015-ci ildən daha da dərinləşməyə başlayan islahatların nəticəsi olaraq xarakterizə olunmalıdır. Göründüyü kimi, son 4 ilin hesabatlarında Azərbaycan yüksəlişdədir. Ölkəmizin iqtisadi sahədə qazandığı nailiyyətlər, eləcə də həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindən kənarda qalmır.

Göstəricilərə nəzər yetirdikdə aydın şəkildə görünür ki, əgər Azərbaycan "Doing Business 2017" hesabatında 65-ci pillədə qərarlaşmışdısa, bir il sonrakı hesabatda 8 pillə yüksələrək 57-ci yerə qalxıb. 190 ölkənin biznes mühitini qiymətləndirən hesabata əsasən, Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri sayılıb. Bir il sonra, "Doing Business 2019" hesabatında isə mövqeyini 32 pillə yaxşılaşdıran ölkəmiz 190 dövlət arasında 25-ci yerdə qərarlaşıb. "Doing Business 2020" hesabatında isə Azərbaycan daha 5 pillə irəliləyərək ən islahatçı 20 ölkə sırasına daxil edilib.

Ötən 4 ildəki yüksəlişi şərtləndirən islahatlara da nəzər yetirək:

***"Doing Business 2017"*** *- idxal və ixrac bəyannamələrinin elektron qaydada verilməsi, vergilərin ödənilməsi, elektrik təchizatı şəbəkələrinə qoşulma, biznesə başlama, əmlakın qeydiyyatı, kiçik investorların maraqlarının qorunması, müqavilələrin icrasının təmin edilməsi.*

***"Doing Business 2018"*** *- müflisləşmənin həll edilməsi, kiçik investorların hüquqlarının qorunması, müqavilələrin icrası, kreditlərə əlçatanlıq, verginin ödənilməsi, elektrik enerjisinin əldə edilməsi, əmlakın qeydiyyata alınması, tikintiyə icazənin verilməsi, daşınmaz əmlakın reyestri, sərhəddə ticarət.*

***"Doing Business 2019"*** *- tikinti üçün icazələrin alınması, kreditlərin verilməsi, kiçik investorların maraqlarının qorunması, biznesə başlama. Bu hesabata əsasən Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə adlandırıldı.*

***"Doing Business 2020"*** *- əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların hüquqlarının qorunması, müqavilələrin icrasının təmin edilməsi. Sənəddə həmçinin göstərilir ki, paytaxtın kadastr xəritəsinin tərtib olunması və Bakıdakı hər bir fərdi torpaq sahəsinin qeydiyyatı, eləcə də mövcud sənədləşmənin təkmilləşdirilməsi və daşınmaz əmlak prosedurlarının çevikliyi nəticəsində daşınmaz əmlakın qeydiyyatı prosesi daha da sürətlənib.*

Aparılan islahatlar mütəmadi olaraq əksər indikatorlar üzrə mövqeyin daha üst səviyyəyə qalxmasına imkan verib. Bu uğurlar Azərbaycan Prezidentinin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

Ümumiyyətlə, beynəlxalq reytinq agentlikləri tərəfindən ard-arda Azərbaycan iqtisadiyyatının real vəziyyəti haqqında müsbət hesabatlar təqdim etməsi təsadüfi deyil. Cənab İlham Əliyev tərəfindən 2015-ci ildən etibarən daha da dərinləşdirilən islahatlar ölkəmizdə hər ötən il böyük uğurlarla müşayiət olunur. Davamlı islahatlar aparıldıqca ölkəmizin beynəlxalq hesabatlarda mövqeyinin daha da yaxşılaşmasına səbəb olur. Bu uğurlar Azərbaycan Prezidentinin sosial-iqtisadi siyasətinin nəticələrinə beynəlxalq təşkilatların verdiyi qiymət olmaqla yanaşı, ölkəmizdə sahibkar sinfi üçün yeni imkanların yaradıldığından, xarici investorlara edilən güzəştlərdən xəbər verir.

Digər bir tərəfdən, ölkəmizin nüfuzlu hesabatda irəliləməsinə əsas səbəblər sırasında hökumətin əksər sahələrdə öz xidmətlərini elektronlaşdırmasını, bu xidmətlərin əlçatanlığının təmin olunmasını vurğulamaq mümkündür. Əhali ilə ünsiyyətdə prosedurların sadələşdirilməsi, get-gəlin və tələb olunan bir sıra xərclərin azaldılması, şəffaflığın önə çıxması hesabatı hazırlayanların diqqətini cəlb edən əsas amillər kimi çıxış edir.

İctimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması Azərbaycanı Cənubi Qafqazın lokomotivinə çevirib.

İstənilən ölkədə isə iqtisadi azadlıq mövcuddursa, dövlət xarici güc və amillərdən asılı olmayaraq xalqın layiqli yaşayışını təmin edə bilir, maddi və mənəvi ehtiyatlarını qorumağa qadir olur. Məhz ölkənin iqtisadi azadlığı şəraitində azad iqtisadiyyat, yəni fəaliyyəti kənar qüvvələrin təsirinə məruz qalmayan sağlam və sərbəst rəqabətə əsaslanan iqtisadiyyat mümkündür. Bu gün Azərbaycanın da adı həmin ölkələr sırasında çəkilir. Çünki bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 65 faizdən çoxu məhz Azərbaycanın payına düşür. Ölkəmiz iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə dünya ölkələri arasında qabaqcıl yerlərdən birini tutur.

Onu da vurğulamaq yerinə düşər ki, ölkəyə verilən beynəlxalq qiymət eyni zamanda xarici investisiyaların cəlb edilməsinə, iqtisadi potensialın tanıdılmasına və təqdim olunmasına da yardım edir. Son 16 ildə ölkə iqtisadiyyatına yatırılan 263 milyard dollarlıq investisiyanın yarısı xarici investorların payına düşür. Bu da aydın şəkildə göstərir ki, Azərbaycanda xarici investorlar üçün əlverişli biznes mühiti yaradılıb.

Bir sözlə, Azərbaycanda aparılan iqtisadi islahatların gələcəyə yönəlik çağırışları nəzərə alması və ölkə iqtisadiyyatının dayanıqlı olaraq gələcək dövrün çağırışlarına cavab vermək üçün hazırlanması Dünya İqtisadi Forumunun hesabatında bir daha öz əksini tapıb.

"Doing Business 2020"yə dair islahat icmalının təqdim edilməsi ondan xəbər verir ki, Azərbaycan hökuməti növbəti dövrlərdə də islahatları davam etdirəcək və beynəlxalq aləmdə mövqeyimiz daha da yaxşılaşacaq, ölkəmiz yenə də liderliyini qoruyub saxlayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Doqquz iqlimin balı

## 20-ci sərgi-satış yarmarkasında Azərbaycanın bütün bölgələrinin arıçıları öz məhsullarını təqdim edirlər

Aqrar sektorda həyata keçirilən islahatlar digər ənənəvi sahələrlə yanaşı, arıçılığın inkişafına da təkan verir. Bunun nəticəsidir ki, ildən-ilə ölkədə arı ailələrinin sayı və məhsul istehsalı artır. Belə ki, arıçılıq haqqında qanunun qəbul edilməsindən ötən 9 il ərzində arı ailələrinin sayı 1,9 dəfə çoxalıb. Arıçılıqla məşğul olan təsərrüfatlarda hər təsərrüfata düşən arı ailələrinin sayı 11,1-dən 12,8-ə çatıb, bal istehsalı isə 2,2 dəfə artıb. Bu artım arıçılığın inkişafına verilən dövlət dəstəyinin nəticəsidir.

Sahəni stimullaşdırmaq üçün arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 5 il müddətində hər il 10 manat məbləğində subsidiya verilir. Bununla yanaşı, dövlət büdcəsindən yüksək məhsuldar bal arılarının yetişdirilməsi və arıçılıq məhsullarının istehsalının artırılması üçün bu sahədə seleksiya və damazlıq işlərinin yaxşılaşdırılması üçün də vəsait ayrılıb.

Digər stimullaşdırıcı amil isə arıçıların yetişdirdikləri məhsulun Bakı şəhərində bal sərgi-satış yarmarkalarının təşkil olunmasıdır. Belə yarmarkalar arıçılara yetişdirdikləri məhsulu daha çox və münasib qiymətə satmağa şərait yaradır. Sözsüz ki, bu da arıçılara yüksək qazanc əldə etməyə imkan verir.

Növbəti 20-ci respublika sərgi-satış yarmarkası Tofiq Bəhramov adına stadionun ərazisində təşkil edilib. Yarmarka sentyabrın 28-dən oktyabrın 18-dək davam edəcək. Bu yarmarka Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olan "Aqrar Tədarük və Təchizat" ASC-nin və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilir.

Yarmarkada 123 ton balın satılması nəzərdə tutulub. Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən yarmarkada satışa çıxarılan məhsullardan nümunələr götürülərək laboratoriya şəraitində yoxlanılıb. Bütövlükdə 3241 nümunə götürülüb ki, bunların da 17,34 faizi keyfiyyət və qida təhlükəsizliyi göstəricilərinə uyğun hesab edilməyib. Bu səbəbdən də keyfiyyət və qida təhlükəsizliyi standartlarına uyğun olmayan həmin məhsullar satışa buraxılmayıb.

Builki yarmarka innovativ yenilikləri ilə ötənilkilərdən fərqlənir. Yarmarka ərazisinin zonalara və sektorlara bölünməsi, arıçıların yer bölgüsü püşkatma vasitəsilə müəyyən edilib.

Bu il tətbiq edilən növbəti yenilik isə satışına icazə veriləcək hər bir məhsulun qablaşmasının üzərində ştrix-kodun olmasıdır. Bu kod vasitəsilə müştərilər www.bal.kend-den.az saytına daxil olaraq məhsulun hansı rayondan gətirildiyini və kim tərəfindən satışa çıxarıldığını öyrənə bilərlər.

Bir sıra kənd təsərrüfatı məhsulları Azərbaycan brendi kimi dünya bazarına ixrac edilir. Bu həm gəlir gətirir, həm də ölkəmizi dünya miqyasında tanıdır. Azərbaycan arıçıları bu sahədə də brend yaratmağı düşünürlər. Belə ki, "Doqquz iqlim" adlanacaq bu bal məhsulu bütün ölkə ərazisindən toplanan balların qarışığıdır. Azərbaycan balının ən böyük müştərisi qida həssaslığı ilə seçilən yaponlardır. Bu sahədə onlardan geri qalmayan almanlar da Azərbaycan balına maraq göstərirlər. İnanırıq ki, bu yeni brend balımıza dünya şöhrəti gətirəcək və daha çox müştərisi olacaq.



Azərbaycan balı dünyada ən keyfiyyətli bal hesab olunur. FAO-nun Azərbaycan ofisinin rəhbəri Mələk Çakmakın deyir: "Beynəlxalq ekspertlərin fikrincə, ən yaxşı arı cinsi və ən yaxşı bal Azərbaycana məxsusdur. Biz də bu məhsulun daha çox istehsal edilib dünya bazarına çıxarılmasına dəstək verməyə çalışırıq".

***Rüstəm KAMAL,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Neftdən əldə edilən gəlirlər ilk növbədə sosial məsələlərin həllinə yönəldilir

*Əvvəli 1-ci səh.*

Bundan sonra da neft satışından əldə ediləcək gəlirlər ilk növbədə sosial məsələlərə, infrastruktur layihələrinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəldiləcək ki, Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı təmin edilsin".

Dövlət vətəndaşların sosial rifahının daha da yaxşılaşması üçün mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir. Bu ilin əvvəlində çox böyük sosial paket təsdiqləndi. Bu sosial layihə 4 milyon ölkə vətəndaşını əhatə edir. Buraya minimum əməkhaqqının, minimum pensiyanın əhəmiyyətli dərəcədə artırılması daxildir. Həmin sosial paketin icrası sayəsində pensiyalar birinci dəfə 40 faiz, ikinci dəfə daha 40 faiz artmışdır. Minimum əməkhaqqı təxminən iki dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Minimum pensiya isə 116 manatdan 200 manata qədər qaldırılıb.

Prezident öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, əldə edilən əlavə gəlirlərin demək olar ki, tam həcmi sosial sahəyə yönəldilir. Çünki sosial sahə dövlət üçün prioritetdir və hər zaman diqqət mərkəzindədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi xüsusi əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin 18 iyun 2019-cu il tarixli sərəncamlarına əsasən sentyabrın 1-dən ölkəmizdə minimum əməkhaqqı 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb, dövlət sektorunda çalışanların əməkhaqlarında 20-50 faiz artımlar edilib. Beləliklə, ölkəmizdə vətəndaş rifahına yönələn və cari ildə inqilabi xarakter daşıyan sosial islahatların tərkib hissəsi kimi, minimum əməkhaqqı məbləğinin 92,3 faiz artırılmasına, eyni zamanda bu məbləğin yaşayış minimumunu (180 manat) 40 faiz üstələməsinə nail olunub.

Minimum əməkhaqqının artımının ilk pilləsi minimum əməkhaqqı məbləği səviyyəsində olan vahid tarif cədvəlinin bütün pillələri üzrə edilən artımlar da nəzərə alınmaqla, 950 min nəfərin (o cümlədən dövlət sektoru üzrə 600 min nəfər, özəl sektor üzrə 350 min nəfər) maaşının artmasına imkan verib.

Minimum əməkhaqqının səviyyəsi yüksək olduğuna görə Azərbaycan MDB ölkələri ilə müqayisədə alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə sahibdir. Minimum əməkhaqqının artımı əhali gəlirlərinin artımına səbəb olmaqla, əmək bazarındakı proseslərə də müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin artmasını, digər tərəfdən əməyin leqallaşdırılmasını stimullaşdırır.

Dövlət başçısının 18 iyun 2019-cu il tarixdə imzaladığı sərəncamlarla eyni zamanda dövlət sektorunda işləyənlərin əməkhaqlarının 20-50 faiz artırılması isə 400 min vətəndaşı əhatə edib. Beləliklə, ikinci sosial paketin tərkib hissəsi kimi, minimum əməkhaqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı ümumən 1 milyon 350 min insanın əməkhaqqı gəlirlərinin əhəmiyyətli şəkildə artması ilə nəticələnib.

Ölkədə işsizliyin aradan qaldırılması sayəsində dövlət siyasəti uğurla həyata keçirilir. Məqsəd bu yolla əhalinin sosial müdafiəsini daha da gücləndirməkdir. Xüsusilə universitet məzunlarının işə cəlb edilməsi dövlət gənclər siyasətinin əsas prioritetlərindəndir. Bu günlərdə Bakı Dövlət Universitetində tələbə və məzunlar üçün "Karyerada ilk addım" adlı məşğulluq tədbiri keçirilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə BDU-nun rektoru Elçin Babayev, ƏƏSM nazirinin müavini Anar Əliyev də iştirak ediblər.

Məqsəd gənclər arasında məşğulluq səviyyəsinin yüksəldilməsidir. Tədbirdə qeyd edilib ki, cari ilin 8 ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq orqanları tərəfindən işlə təmin olunan gənclərin sayı 14056, peşə hazırlığı kurslarına cəlb edilənlər - 465, haqqı ödənilən ictimai işlərə cəlb olunanlar - 7945 nəfərdir.

"Karyerada ilk addım" məşğulluq tədbirinin məqsədi həmçinin tələbə və məzunların əmək bazarına çıxışının dəstəklənməsi, onların işəgötürənlərlə ilkin əlaqələrinin qurulmasına xidmət edir. Nazirliyin müvafiq qurumları tərəfindən il ərzində 10 universitetdə belə tədbirin keçirilməsi planlaşdırılır. Həmin tədbirdə tələbə və məzunlara işləmək üçün 60 müəssisədən ümumilikdə 360 boş (vakant) iş yeri təklif olunub.

Həyata keçirilən sosial siyasət nəticəsində vətəndaşların müavinət və təqaüdlərinin artırılması sahəsində görülən işlər ümumilikdə 1,3 milyon insanı əhatə etdi. Bunlardan 300 mindən çoxu əlilliyi olan şəxslər, 500 minə qədəri məcburi köçkün, 100 mindən çoxu tələbələrdir. Ümumilikdə bu müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə edərək onların gəlirlərinin əhəmiyyətli dərəcədə artmasını təmin edib.

İqtisadiyyatın dinamik inkişafı, yeni iş yerlərinin açılması və əməkhaqların artması əhalinin gəlirlərinin yüksəlməsinə imkan yaradır. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-avqust aylarında ölkə əhalisinin nominal gəlirləri keçən ilin eyni dövrünə nisbətən 4,8 faiz artaraq 36861,6 milyon manat təşkil edib ki, bu da əhalinin hər nəfərinin orta hesabla 3727,8 manatlıq gəlir əldə etməsinə imkan yaradıb.

Cari ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 8,4 faiz artaraq 587,7 manat təşkil edib. Orta aylıq əməkhaqqı neft-qaz sektorunda 3101,6 manat, qeyri-neft sektorunda 530,7 manat olub. Dövlət müəssisələrində çalışanların əməkhaqları 482,5 manat, özəl sektorda işləyənlərin əməkhaqları 724,1 manatdır.

***R.KAMAL,***
***"Azərbaycan"***

# Məmnunuq

Son illər dövlət tərəfindən həyata keçirilən sosial siyasət ölkəmizin bütün bölgələrində, hər evdə, ailədə minnətdarlıqla qarşılanır, məmnunluq yaradır.

Prezident İlham Əliyevin minimum pensiyanın artırılmasına dair imzaladığı sərəncam oktyabr ayının 1-dən qüvvəyə minir. Bu il ikinci dəfə baş verən artım nəzərəçarpacaq dərəcədə böyükdür. Azərbaycan ailəsinə ünvanlanan bu qayğıdan on minlərlə ölkə vətəndaşına pay düşür. Mənim ali təhsilim var. Uzun illər işləyib sonra təqaüdə çıxmışam. Doğrusu, aldığım pensiya ilə ərzağı, dava-dərmanı, xeyir-şəri qarşılaya bilmirdim. Dövlət başçısının qayğısı ilə artırılan pensiya bizdə yeni ümidlər doğurur, bizi yaşamağa həvəsləndirir.

Mənim kimi yaşlı adamlar axşamlar çayxanada əyləşib çay içir, ölkədəki ictimai-siyasi durumdan, dünyada baş verən hadisələrdən danışırlar. Bu günlərdə isə söhbətlərimizin yalnız bir mövzusu var. Yaşlaşdıqca uşaq kimi kövrələn, qayğı və diqqətə ehtiyacı artan insanlar Prezident İlham Əliyevin ölkənin aztəminatlı vətəndaşlarına qayğısını, bizlərə göstərdiyi isti və doğma münasibəti dönə-dönə minnətdarlıqla vurğulayırlar.

***Arif ƏLİYEV,***
***Bərdə şəhər sakini, təqaüdçü***

# Qala qəsəbəsində "Açılan divarlar" və "Ümidin yaradılması" layihələrinin təqdimatı olub




Sentyabrın 30-da Nəsimi festivalı çərçivəsində Qala qəsəbəsində "Açılan divarlar" ictimai incəsənət layihəsinin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, layihənin təqdimat mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Ötən ildən həyata keçirilən layihədə yeddi əcnəbi və iki yerli qrafiti rəssamı iştirak edərək köhnə sənaye anbarı üzərində inanılmaz divar rəsmləri yaradıblar.

Bildirilib ki, layihə çərçivəsində Azərbaycan, Braziliya, Cənubi Afrika, İspaniya, Niderland və Fransadan olan rəssamların "urban/street art" (şəhər/küçə incəsənəti) janrında yaratdıqları əsərlər, Buzovna və Mərdəkan qəsəbələrindən olan yaradıcı uşaqların rəsmləri əsasında divar pannosu da nümayiş olunur.



Əsas məqsəd yalnız məşhur rəssamların işlərini göstərmək deyil, həmçinin yerli istedadları da bu layihəyə cəlb etmək olub.

Qeyd edilib ki, Nəsimi şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində bu il həm də uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının iştirakı ilə "Ümidin yaradılması" sosial-mədəni layihəsi də həyata keçirilib. Layihə üzrə dizayn kurslarına cəlb olunmuş 30 iştirakçı öz arzularını təsvir vasitəsilə əks etdirib və onların əl işləri sonra köynəklər üzərinə köçürülüb.

Festival çərçivəsində bu köynəklərin nümayişi də olub. Layihənin məqsədi uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının yaradıcılıq qabiliyyətini inkişaf etdirmək və onlara məşğulluq imkanları yaratmaqdır.

Sonra qonaqlar hər iki layihə ilə tanış olublar.

# "LEYLA. FONS VITAE" poeziya tamaşası maraqla qarşılanıb




İkinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində sentyabrın 30-da Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində "LEYLA. FONS VITAE" poeziya tamaşası təqdim olunub.

AZƏRTAC xəbər verir ki, tamaşanı izləyənlər arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva da olub.

"LEYLA. FONS VITAE" Leyla Əliyevanın və şair və dramaturq, Çexiyada yaşayan həmvətənimiz Leyla Bəyimin (Cəfərovanın) iştirakı ilə hazırlanmış ilk tamaşadır.

Fons Vitae (lat.) - həyat mənbəyi deməkdir. Bu termin XI əsr şair və filosofu, o zaman üç din arasında tolerantlıq mərkəzi olan Toledoda yaşamış Solomon ibn Qabirolun mesajıdır. Solomon ərəb dilində yazıb, daha sonra latın dilinə "Fons Vitae" şəklində tərcümə edib.

İmadəddin Nəsimi və Solomon ibn Qabirol fərqli zamanlarda, amma ərəb xilafətinin eyni mədəni məkanında yaşayıblar və poeziyalarında bənzər dini köklər və fəlsəfə əks olunub.

Tamaşanın nümayişindən əvvəl səhnə əsərinin quruluşçu rejissoru, Xalq artisti Vaqif Əsədov deyib ki, Leyla Əliyeva və Leyla Bəyimin əsərlərində çox yaxın bağlar var. Onlar da öz sələfləri kimi bütün poetik axtarışlarında kamil insan obrazı yaratmaq, Allahın böyüklüyünü insanda görmək, onda tapmaq istəyirlər. Tamaşada Solomon ibn Qabirol Nəsimi ilə üz-üzə gəlir. Səhnə əsərində hər iki şairin 5 şeirindən istifadə edilib. Bu əsərlər bütövlükdə Nəsimi poeziyasının ruhuna yaxın, həm də festivala bir töhfədir.



Rejissor deyib ki, Leyla Əliyeva və Leyla Bəyimi bir-birinə bağlayan, yaxınlaşdıran ideyadır. Bu ideya vaxtilə Nəsimini Solomonla bağlayıb. Əsrlər keçib, bu ideya yenidən iki söz adamını birləşdirir. Burada əsas ideya İnsandır. Birinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalından "Qurban" immersiv tamaşası ilə sənətsevərlərə yaxşı tanış olan Leyla Bəyim deyib ki, bizim Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində düşündüyümüz poetik tamaşa ideyası zamanın fövqündə olan şairin tutduğu yolu, onun mənəvi maariflənmə yolunu göstərməkdən ibarətdir.

Solomon ibn Qabirolun poeziyasının ruhu zaman məfhumu altında Nəsimi poeziyasından gecə səmasında parlayan yeni ulduz, sevgi ulduzu kimi keçir. Əsrlər ötür, sərhədlər, dillər dəyişir, lakin poeziya və mənəviyyat dili eynidir... Bu, bizim Leyla Əliyeva ilə gələcək dialoqumuzun rasional toxumudur. Bu dialoq mənə etibarilə özümüzün əksidir. Bu, öz daxilimizə nüfuz etmək, işığa aparan "gecə"nin dərinliyinə dalmaqdır.

Sonra tanınmış elm və mədəniyyət xadimlərinin, şeirsevərlərin iştirakı ilə "LEYLA. FONS VITAE" poeziya tamaşası təqdim olunub.

Poeziya tamaşasında iki şairənin şeirləri dialoq şəklində, dram quruluşu müşayiəti ilə söylənilib. İki şairənin poetik deyişməsi simvolik olaraq şairlərin lirik qəhrəmanının mənəvi inkişaf və maariflənməsi yolunu əks etdirir.

Tamaşada Fuad Osmanov Solomon ibn Qabirolun, Oleq Əmirbəyov isə Nəsiminin obrazını canlandırıblar.

Tamaşa bütün iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tamaşanın iştirakçıları və festivalın qonaqları dahi mütəfəkkir və filosofa həsr edilmiş festivalın təşkilinin təkcə ölkənin mədəni həyatı üçün yox, ümumilikdə bütün ictimaiyyət üçün böyük əhəmiyyət kəsb etdiyini söyləyiblər. "LEYLA. FONS VITAE" poeziya tamaşasının bənzərsizliyini xüsusi vurğulayan qonaqlar hər iki şairəni təbrik edib və onlara ən xoş arzularını çatdırıblar.

# Nəsimi festivalı çərçivəsində VIII Beynəlxalq "Tullantıdan sənətə" sərgisi açılıb




Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində sentyabrın 30-da "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda VIII Beynəlxalq "Tullantıdan sənətə" sərgisi açılıb.

Layihə Heydər Əliyev Fondunun təşəbbüsü, "Təmiz Şəhər" ASC-nin təşkilatçılığı, IDEA İctimai Birliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və "Q Gallery" incəsənət qalereyasının dəstəyi ilə həyata keçirilir.

Rusiyalı rəssam Fukrat Bayçibayev sərgi ilə bağlı təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşərək deyib: "Mənim metal tullantılardan ərsəyə gətirdiyim "Şərq gözəlliyi" əsərim görkəmli mütəfəkkir Nəsiminin mədəni irsində göstərilən ən parlaq və ecazkar simalardan biri olan Şərq gözəlini tərənnüm edir. Bu gözəli o, bir çox şeirlərində vəsf edib. Barelyef müxtəlif polad detallardan hazırlanıb. İnanıram ki, ziyarətçilər tərəfindən bəyəniləcək".

Azərbaycanlı rəssam Şahnaz Ağayeva əsəri barədə məlumat verərək deyib ki, "Açıqlama" adlı instalyasiyasının əsas məğzi daşlaşmış beyinlərin elm və savada köklənməsi konseptini ehtiva edir: "Daş informasiya daşıyıcılarından biridir. İnsan beyninin məhz daşla müqayisə edilməsi konsepti daha dəqiqləşir, inkişafa can atmaq üçün dayaq nöqtəsi olur. Belə bir sərgidə iştirakdan məmnunam, yaradılan şəraitə görə təşkilatçılara təşəkkür edirəm".

Xorvatiyalı Sanya Pribiçin "Seirlərin nəsimi" adlı əsəri yeddi üfüqi şəkildə asılmış, üzərinə qəzetlər yapışdırılmış və mavi rəngə boyadılmış penoplast parçasıdır. Rəssam deyib: "Hürufizmdə yeddi müqəddəs rəqəmdir. Əsərin nümayiş edildiyi yerdə hava axınının paketləri yüngül mehlə - nəsimlə hərəkətə gətirməsi şairin təxəllüsünə işarə verir. Nəsiminin yaradıcılığı səmadan bizə gələn bir bəxşişdir".

Monteneqrolu rəssam Luka Radoyeviçin sərgidə yer alan "Nəsiminin xəyalları" əsəri də olduqca maraqlıdır. Əsər haqqında məlumat verən rəssam deyib: "Mən Nəsiminin uşaqlığını göstərən dörd portretini çəkmişəm. Plastikdən kollaj şəklində hazırlanmış portret Azərbaycanın xəritəsidir. Burada onun ingilis dilində tərcümə olunmuş şeirləri yer alır".

Budəfəki sərgidə 14 ölkədən 21 rəssam-heykəltəraşın əl işləri nümayiş olunur. Sərgidə Azərbaycan, Çin, Finlandiya, Hindistan, Xorvatiya, İordaniya, İran, Monteneqro, Özbəkistan, Rusiya, Türkiyə, Şimali Makedoniya, Ukrayna və Yaponiyadan olan incəsənət nümayəndələrinin əl işləri təqdim edilib. Ənənəvi keçirilən sərgi bu il 650 illik yubileyi qeyd olunan dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığına həsr olunub.

"Tullantıdan sənətə" sərgisi 2010-cu ildən etibarən təşkil olunur. 2015-ci ildən Qala qəsəbəsində "Tullantıdan sənətə" muzeyi də fəaliyyət göstərir. Layihə tullantı materiallarından sənət əsərləri yaratmağın mümkünlüyünü nümayiş etdirir. Əsas məqsəd əhaliyə ətraf mühiti təmiz saxlamağın vacibliyini aşılamaq, insanları lazımsız saydıqları əşyaları düşünmədən zibil qutularına atmaq vərdişlərindən çəkindirməkdir.

# "Daşın nəğməsi" IV Beynəlxalq heykəltəraşlıq simpoziumunda 11 heykəltəraşın sənət əsəri nümayiş olunur

"Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Daşın nəğməsi" adlı IV Beynəlxalq heykəltəraşlıq simpoziumu çərçivəsində yaradılan əsərlər sentyabrın 30-da təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Nəsimi-şeir, incəsənət və mənəviyyat Festivalına həsr olunmuş budəfəki simpoziumda yaradılan əsərlər 650 illik yubileyi qeyd olunan Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığından bəhs edir.

Bu dəfə simpoziumda 8 ölkədən 11 heykəltəraş iştirak edir.

Rusiya, Rumıniya, Belarus, Çin, İran, Latviya, Bolqarıstan və Azərbaycandan olan heykəltəraşlar "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksi ərazisində aqlay daşından Nəsimi yaradıcılığına həsr olunan əsərlər yaradıblar.

Simpoziumda ilk dəfə iştirak etdiyini deyən iranlı heykəltəraş Səid Əhmədi bildirib ki, o da digər həmkarları kimi simpoziuma Nəsimi yaradıcılığından bəhrələnərək ərsəyə gətirdiyi "Uçmaq üçün qanad" əsəri ilə qatılıb. "Biz bu əsərləri hazırlayarkən müəyyən müddət çəkir ki, onu tam ərsəyə gətirək. Ancaq bütün bu əziyyətlərin nəticəsinin yaxşı olduğunu düşünmək olar. Ümid edirəm ki, budəfəki simpoziumda nümayiş edilən sənət əsərləri maraqlı və yaddaqalan olacaq".



Belaruslu heykəltəraş Aleksey Vrublevski vurğulayıb ki, o, Nəsimi yaradıcılığı ilə yaxından tanışdır. Şairin qəzəlləri onda xoş təəssürat yaradıb. Aleksey Vrublevski yaratdığı əsərdə daha çox şairin poeziyasından ilhamlandığını söyləyib. "Mən də bu tədbirə birinci dəfədir qatılıram. Nəsimi yaradıcılığı ilə tam vəhdət təşkil edən sənət əsəri - "Məndə sığar iki cahan" əsərinin meydana gəlməsinə çalışdım".

Həmyerlimiz, azərbaycanlı heykəltəraş Fərman Qasımov deyib ki, simpoziuma fərqli və olduqca maraqlı "Təcəlli" əsəri ilə qatılıb: "Belə tədbirin hər il keçirilməsi olduqca əlamətdardır. Simpoziumda müxtəlif ölkələrdən olan sənətkarların bir araya gəlməsi, həm də sənət və təcrübə mübadiləsi deməkdir. Bunun digər müsbət cəhəti həm də ondadır ki, xarici ölkədən olan sənətkarlar Nəsimi yaradıcılığına dərindən bələd olur. Bir sözlə, sənətin dili ilə şairin zəngin yaradıcılığını insanlara çatdırırlar. Hamıya uğurlar arzulayıram".

Dünyanın bir çox ölkələrində belə möhtəşəm simpoziumlarda iştirak etdiyini deyən rusiyalı heykəltəraş Nikolay Karlıxanov hər ölkədə fərqli-fərqli əsərlərlə çıxış etdiyini qeyd edib. Digər həmkarları kimi budəfəki simpoziumun daha yaddaqalan və maraqlı olacağını söyləyib. Bildirib ki, Nəsimi yaradıcılığı onu "Emanasiya" adlı sənət əsəri yaratmağa sövq edib.

Simpoziuma "Böyük qayıdış" əsəri ilə qatılan həmyerlimiz Əhəd Məmmədov nümayiş edilən əsərlərin əhəmiyyətini vurğulayaraq ziyarətçilər tərəfindən bəyəniləcəyi və Nəsimi festivalına töhfə olacağını söyləyib.

Qeyd edək ki, "Daşın nəğməsi" adlı Beynəlxalq heykəltəraşlıq simpoziumu 2016-cı ildən keçirilir.

# XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının təntənəli bağlanış mərasimi olub

Bakıda Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının sentyabrın 30-da təntənəli bağlanış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Mədəniyyət naziri Əbülfəs Qarayev, ictimai təşkilatların nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak ediblər.

Bağlanış mərasimində dirijor Mustafa Mehmandarovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və beynəlxalq müsabiqələr laureatları Elnarə Məmmədova (Azərbaycan-Rusiya), Regina Rüstəmova (Rusiya), İlham Nəzərov (Azərbaycan), Mahir Tağızadə (Azərbaycan), Cəbrayıl İdrisov (Özbəkistan), Ümid İsrailov (Özbəkistan), Giorgi Çelidze (Gürcüstan) və başqaları çıxış ediblər.

Qeyd edək ki, Üzeyir Hacıbəyli göstərdiyi xidmətlərlə öz adını Azərbaycanın musiqi tarixinə əbədi olaraq həkk edib. Dahi bəstəkarın doğum gününün musiqi bayramı kimi qeyd edilməsi ənənəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin 1995-ci ildə - bəstəkarın 110 illik yubileyi münasibətilə imzaladığı fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Böyük bəstəkar Azərbaycan xalqının tarixində silinməz iz qoyub. Təsadüfi deyil ki, Üzeyir bəy həm də ötən il 100 illiyini təntənə ilə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-mədəni həyatında yaxından iştirak etmiş böyük şəxsiyyətlərimizdəndir.

Bu gün də Üzeyir bəy ənənələri davam edir. Milli Musiqi Günü artıq 10 ildir ki, təkcə musiqi bayramı olaraq deyil, həm də daha geniş miqyasda beynəlxalq musiqi festivalı kimi musiqisevərlərin görüşünə gəlir. Azərbaycan musiqisi bu gün beynəlxalq aləmdə təbliğ edilir. Musiqi kollektivlərimiz beynəlxalq müsabiqələrdə çıxış edərək Azərbaycan xalqının musiqi yaradıcılığı qüdrətini nümayiş etdirir. Heydər Əliyev Fondunun təşkilatçılığı, Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan musiqisinin tarixi ənənələri UNESKO tərəfindən qorunmaqdadır.

Musiqi günü münasibətilə Azərbaycanın bütün bölgələrində tədbirlər həyata keçirilib. Bundan əlavə, builki XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində paytaxtın bütün mədəniyyət müəssisələrində musiqi bayramı əhvalı hökm sürüb, tanınmış musiqiçilərin əsərləri səsləndirilib.

XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalında Azərbaycan, ABŞ, Rusiya, Çin, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan, Ukrayna və Gürcüstandan tanınmış musiqi kollektivləri çıxış ediblər. Festival günlərində paytaxtın bir sıra konsert salonlarında - Beynəlxalq Muğam Mərkəzində, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında, Azərbaycan Bəstəkarlar İttifaqında, Bakı Musiqi Akademiyasında, Heydər Əliyev Sarayında, Azərbaycan Dövlət Akademik Musiqili Teatrında ümumilikdə 40-a yaxın tədbir keçirilib.

Festival günlərində Xalq artisti, bəstəkar Aygün Səmədzadənin "Azərbaycan 100 mahnıda" layihəsinin, Azərbaycan Bəstəkarlar İttifaqında Əməkdar incəsənət xadimi, akademik Zemfira Səfərovanın "Azərbaycan musiqi tarixi" kitabının təqdimatları, Soltan Hacıbəyovun 100 illiyinə həsr olunmuş yubiley gecəsi və digər təqdimatlar olub.

# "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının Əlaqələndirmə Şurasının iclası keçirilib

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrasında 28 dövlət qurumu, eləcə də yerli icra hakimiyyəti, bələdiyyə orqanları, publik şəxslər və qeyri-hökumət təşkilatları iştirak edirlər. Dövlət proqramının mərkəzi və yerli komponentləri eyni dərəcədə əhəmiyyət daşıyır və bütövlükdə 2 milyon 600 min nəfər ölkə əhalisinin müxtəlif hüquq, tələb və maraqlarını yönləndirir və təmin edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Prezident İlham Əliyevin 2017-ci il sentyabrın 15-də imzaladığı müvafiq sərəncamla təsdiq olunmuş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının Əlaqələndirmə Şurasının sentyabrın 30-da Bakıda keçirilən iclasında səsləndirilib.

Dövlət qurumlarının, beynəlxalq, ictimai və gənclər təşkilatlarının nümayəndələrinin, Milli Məclisin deputatlarının iştirakı ilə keçirilən tədbirdə Gənclər və İdman naziri Azad Rəhimov çıxış edərək dövlət proqramının əhəmiyyətindən danışıb. Nazir Azad Rəhimov bildirib ki, Azərbaycanda gənclər sahəsinə diqqət Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti ilə müəyyənləşdirilib. Prezident İlham Əliyevin Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında dediyi kimi, müasir dövrdə ölkəmizdə gənclər siyasətinin həyata keçirilməsinə 1994-cü ildə başlanıb. Həmin dövrdə çətinliklərə baxmayaraq, Ulu Öndərin uzaqgörən qərarı Azərbaycanda gənclər üçün yeni imkanlar yaradıb.

Nazir qeyd edib ki, ötən iyirmi beş ildə "Gənclər siyasəti haqqında" qanun, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", üç ünvanlı dövlət proqramı və digər sənədlər qəbul olunub. Hazırkı dövlət proqramı nəticələrinə görə əvvəlkilərdən əsaslanır və ölkədə yaranmış imkanları nəzərə alır. Əvvəlki proqram 8 istiqamət və 68 bənddən ibarət olduğu halda, hazırkı sənəddə 11 istiqamət üzrə 106 bəndin icrası nəzərdə tutulub. Bu bəndlərin əksəriyyətinin icrası davam edir. Dövlət proqramı keyfiyyətli icra edilir və bütün qurumlar vəzifələrini məsuliyyətlə yerinə yetirirlər. Bəzi istiqamətlər üzrə qurumlar birgə fəaliyyət göstərirlər ki, bu da yüksək səmərə verir.

Sonra Gənclər və İdman nazirinin müavini İntiqam Babayev çıxış edərək dövlət proqramının icrası ilə əlaqədar hesabatı təqdim edib, ötən müddətdə həyata keçirilən tədbirlər, görülən işlər və gənclərin hərtərəfli inkişafına yönəlmiş layihələr haqqında məlumat verib. Qeyd edib ki, dövlət proqramının icrasının vaxtaşırı monitorinqi üçün Gənclər və İdman Nazirliyi tərəfindən əlaqələndirmə şurası formalaşdırılıb. Gənclərlə bağlı üçüncü dövlət proqramında gənclik və müasir texnologiya, gənclərin gender məsələləri, ekoloji maarifləndirilməsi və digər sahələr daha geniş şəkildə əksini tapıb. Amma əsas istiqamət Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsi məsələləridir. Bundan başqa, proqrama gənclərimizin ictimai fəallığının artırılması, ölkədə gedən islahatlarda, müxtəlif layihələrdə gənclərin iştirakına, potensiallı və yaradıcı gənclərin aşkarlanmasına maksimum şərait yaratmaq daxildir. Hazırda dövlət proqramımız uğurla icra olunmaqdadır. Gənclər və İdman Nazirliyi altı aydan bir aidiyyəti dövlət qurumlarından hesabatlarını əldə edərək onları ümumiləşdirir və təhlilini aparır. Bu gün müvafiq qurumlar tərəfindən proqram çərçivəsində ölkəmizdə 1800-dən çox tədbir keçirilib. Həmin tədbirlərin əksəriyyəti vətənpərvərlik mövzusu ilə bağlı olub. Azərbaycanın bütün bölgələrində təşkil edilən bu tədbirlər region gənclərinin inkişafına mühüm töhfə verir.

Gənclər və İdman Nazirliyinin şöbə müdiri İndira Hacıyeva "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramını gənclərə və ictimaiyyətə aydın şəkildə çatdırmaq, müvafiq istiqamətləri göstərmək üçün hazırlanan müvafiq internet saytının təqdimatını edib. Saytda keçirilmiş sosioloji sorğu ilə bağlı məlumat verilib.

Tədbirdə əlaqələndirmə şurasının üzvləri, aidiyyəti dövlət qurumlarının səlahiyyətli nümayəndələri, gənclər və beynəlxalq təşkilatların rəhbərləri çıxışlarında proqram çərçivəsində görülən işlərdən danışıb, mövzu ətrafında fikir mübadiləsi aparıb, təkliflər səsləndiriblər.

# AAF-ın təşkilatçılığı ilə Gəncədə idman avtomobillərinin yarışı və şousu keçirilib





Sentyabrın 29-da Gəncə şəhərində Azərbaycan Avtomobil Federasiyasının (AAF) təşkilatçılığı və "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə "V1 Challenge Gəncə" - idman avtomobillərinin yarışı və şousu keçirilib. Heydər Əliyev Park Kompleksi ərazisində 20 mindən çox tamaşaçının izlədiyi yarış həyəcan dolu anlarla, maraqlı tryuklarla yadda qalıb.



AZƏRTAC xəbər verir ki, "V1 Challange Gəncə" yarışına "Volkicar"lar, kartinq və drift avtomobilləri, sportkarlar qatılıb.

Tədbirdə tanınmış pilotlar - "Drift GP International" promouteri Neyl Qan, drift üzrə Almaniya çempionu Sebastian Fonteyn, "Drift All Stars European Series" yarışlarının qalibi Martin Riçards, "Drift GP International" yarışlarının texniki direktoru Antanas Kiquolis, eləcə də yerli drift və "Volkicar" pilotları çıxış ediblər.

Avtoidman həvəskarları üçün "Volkicar", drift və idman avtomobillərinin yürüşü, "Volkicar"ların yarışı, "Volkicar" və sportkarla "burnout", drift şouları təqdim olunub.

Tamaşaçılar arasında avtomobil idmanı və yol hərəkəti təhlükəsizliyi mövsuzunda viktorina keçirilib, fəal iştirakçılar mükafatlandırılıb.

Viktorina başa çatdıqdan sonra "Volkicar" avtomobillərinin yarışı keçirilib.

Avtomobillərin çıxışı Gəncə sakinləri tərəfindən yüksək coşqu ilə qarşılanıb.

Drift yarışları üzrə pilotlar Elvin Xudaverdiyev birinci, Adil Axundov ikinci, Fəxri Gülməmmədov isə üçüncü yerin qalibi olublar.

"V1 Challange" yarışında isə pilotlar Fərid Məmmədov birinci, Azad Hüseynov ikinci, Mətin Orucov isə üçüncü yeri əldə ediblər.

Sonda qaliblərə kuboklar təqdim olunub.

İdman avtomobillərinin yarışı və şousu başa çatdıqdan sonra yerli və avropalı peşəkar pilotlar, eləcə də yarışın qalibləri təəssüratlarını AZƏRTAC-a bölüşüblər.

"Drift All Stars European Series" yarışlarının qalibi Martin Riçards: İlk dəfədir Azərbaycandayam. Çox şadam ki, bu gün Gəncədəyəm. Bu şəhərdə ilk dəfə keçirilən idman avtomobillərinin yarışına və şouya böyük həvəs var. Xüsusən gənclərin avtoidmana olan həvəsi məni çox sevindirir. Əminəm ki, bu gündən sonra ölkənizdə driftə daha çox maraq yaranacaq.

"Drift GP International" promouteri Neyl Qan: İrlandiyadan gəlmişəm. İlk dəfə ötən ilin oktyabrında Azərbaycanda olmuşam və gənc pilotlara drift təlimləri keçmişəm. Son bir ili müqayisə etdikdə ölkənizin avtoidman sahəsindəki böyük nailiyyətlərini görmək mümkündür. Belə ki, ötən il dərs keçdiyimiz pilotlar hazırda daha peşəkardırlar. Həmçinin drift avtomobillərinin sayı da xeyli artıb. Bugünkü yarışa böyük maraq var. Avtoidmana bu cür münasibət peşəkar pilot kimi məni çox sevindirir. Yüksək təşkilatçılığa və dəvətə görə minnətdarlığımı bildirirəm.

Drift üzrə Almaniya çempionu Sebastian Fonteyn: Azərbaycanda ilk dəfə ötən il olmuşam. O zaman mən və yoldaşlarım azərbaycanlı gənc pilotlar üçün drift təlimlər keçmişdik. Həmin il yalnız 4-5 drift avtomobili vardısa, bu gün onların sayı 15-ə çatıb. Pilotların peşəkarlığı da yüksəlib. Əminəm ki, hazırkı pilotlar daha çox səy göstərərək özlərinin drift üzrə bacarıqlarını daha da təkmilləşdirə bilərlər. Bununla da həmin gənclər yaxın gələcəkdə Avropada Azərbaycanı təmsil edə biləcəklər.

Kartinq pilotu Kənan Həsənov: Mənim 17 yaşım var. Buna baxmayaraq artıq 7 ildir ki, kartinqlə məşğulam. Əvvəllər bu sahə ölkəmizdə elə də inkişaf etməmişdi. Demək olar ki, heç yerdə məktəblər və kurslar yox idi. Lakin son illərdə Bakı Kartinq Mərkəzində bu sahə ilə daha ciddi məşğul olmaq istəyənlər üçün hər bir şərait yaradılıb. Mən özüm də bu mərkəzin tələbəsiyəm. Əsas məqsədim yeni-yeni nailiyyətlər qazanmaqla bu idmanın ölkəmizdəki inkişafına töhfə verməkdir. Azərbaycan Avtomobil Federasiyası tərəfindən Gəncə şəhərində keçirilən idman avtomobillərinin yarışı və şousu məni çox sevindirir. Çünki bu cür yarışların təşkili mənim kimi gənc pilotlar üçün kartinq təcrübəsini artırmaq baxımından əhəmiyyətlidir. Əminəm ki, bugünkü yarışın paytaxtdan kənarda - Gəncədə təşkil edilməsi gələcəkdə avtoidman həvəskarlarının sayını artıracaq və mənim kimi gənc pilotların yetişməsinə şərait yaradacaq.

Birinci yerin qalibi Fərid Məmmədov: Sevindirici haldır ki, ilk dəfə Gəncə şəhərində idman avtomobillərinin yarışı keçirilir. Bu cür yarışların keçirilməsi avtomobil idmanı mədəniyyətinin yüksəlməsi və yollarda avtoxuliqanlıq edənlərin, eləcə də qəzaların sayının azalması üçün əhəmiyyətlidir. Tamaşaçıların alqışları göstərdi ki, Gəncədə də avtoidmana böyük maraq var. Son dövrədə azarkeşlər öz alqışları ilə mənə böyük dəstək oldular və mən birinciliyi əldə etdim. Bizim yarışı böyük həyəcanla sonadək izlədiklərinə görə driftsevərlərə minnətdarlığımı bildirirəm.

İkinci yerin qalibi Azad Hüseynov: Sevdiyim idmanla məşğul olduğuma görə bu cür yarışlara böyük həvəslə qatılıram. Bütün yarışlarda olduğu kimi, bu dəfə də çox həyəcanlı idim. Bununla belə gəncəli azarkeşlərin dəstəyini hiss etdim və ikinci yerin qalibi oldum. İlk dəfə Gəncədə keçirilən bu yarış yüksək səviyyədə təşkil olunub. Belə yarışların yenə də Gəncədə keçirilməsini arzu edirəm.

Üçüncü yerin qalibi Mətin Orucov: Üçüncülüyü əldə etdiyimə görə çox sevinirəm. Güclü rəqiblərim vardı. Ümidvaram ki, gələcəkdə Avropada keçirilən yarışlarda da qalib gələrəm.

Qeyd edək ki, sentyabrın 30-dan Azərbaycan Avtomobil Federasiyası tərəfindən Gəncədə Yol Hərəkəti Təhlükəsizliyi həftəsi də keçirilir. Bu tədbirlər çərçivəsində "Yollarda təhlükəsiz davranışı həyat tərzinə çevirək" adlı konfrans və Gəncənin bir sıra ümumtəhsil məktəblərində yol hərəkəti təhlükəsizliyinə həsr olunan təlimlər təşkil ediləcək.

Konfrans və təlimləri AAF-ın yol hərəkəti təhlükəsizliyi üzrə məsləhətçiləri Əlləz Əliyev, Ərşad Hüseynov və Sahib Əsgərov aparacaqlar. İştirakçılara yol hərəkəti təhlükəsizliyi, o cümlədən yol nişanları, işıqfor, piyada keçidi və digər istiqamətlər üzrə məlumatlar veriləcək.

# Azərbaycan təhsilində STEM yanaşması

## I Beynəlxalq "Hədəfdə STEM" konfransı keçirilib





Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində, Hədəf liseyinin təşkilatçılığı və BP Azərbaycanın dəstəyi ilə I Beynəlxalq "Hədəfdə STEM" konfransı keçirilib.

Müasir dövrdə təhsil sahəsində ən çox tətbiq edilən yanaşmalardan biri olan STEM (Science, Technology, Engineering, Math) elm və texnologiya, mühəndislik və riyazi biliklər sahəsində mütəxəssislər yetişdirmək üçün fənlərin inteqrasiyası və konstruktiv təhsil nəzəriyyəsinə əsaslanaraq, şagirdlərin bu sahələrə marağını artırmaq, onları gələcəyin ən vacib ixtisasları olan sahələrə həvəsləndirməkdir. Konfransın keçirilməsində məqsəd də Azərbaycanın təhsil müəssisələrində STEM yanaşmasını yaymaq səylərinə dəstək vermək idi.

Konfransı giriş nitqi ilə açan Hədəf liseyinin direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəmil Sadiq qeyd edib ki, 2017-ci ildən fəaliyyətə başlayan lisey Azərbaycanda STEM yanaşması ilə təhsil verən ilk ümumtəhsil müəssisəsidir: "Biz beynəlxalq əməkdaşlığa, bilgi və təcrübənin qlobal miqyasda bölüşməsinə xüsusi əhəmiyyət verir və bir neçə beynəlxalq qurumla əməkdaşlıq edirik. Artıq 3 ildir ki, liseyimiz Azərbaycan təhsilində STEM anlayışının tanıdılması və həyata keçirilməsi ilə bağlı müxtəlif formatda konfrans və seminarlar keçirir. Son iki ildə 300 müəllimi əhatə edən "Hədəfdə STEM" adlı təlim-treninqləri liseyimizin və xarici təşkilatların pedaqoqları, təlimçiləri ilə həyata keçirilmiş, çağdaş təhsilin yeniliklərini əyani şəkildə müəllimlərə çatdırmışıq".

Ş.Sadiq Prezident İlham Əliyevin 19 yanvar 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nı yüksək qiymətləndirərək bildirib ki, bu sənəd ölkəmizin təhsil sisteminin başlıca vəzifəsi olaraq insan kapitalının inkişafı, qlobal iqtisadiyyata uğurlu inteqrasiyası və beynəlxalq rəqabətdən daha effektli faydalanması üçün şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədilə təhsil sisteminin daima təkmilləşdirilməsini nəzərdə tutur. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, ömür boyu təhsil sistemınə qoşulmaq və ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayev çıxışında deyib ki, STEM, yaxud təhsildə innovasiyalar haqqında danışmaq asan, onu tətbiq etmək isə kifayət qədər çətindir: "Sürətli dəyişikliklər təhsili idarə edən orqanlar üçün də müəyyən çağırışlar yaradır. Bu mənada ki, dərslikləri beş ildənbir çap edirdiksə, hazırda sürət artdıqca hər şey iki-üç ildənbir dəyişir, köhnəlir. Belə bir fikir səslənir - əvvəllər məktəbə daha çox maraq var idi, indi bu maraq getdikcə azalır. Burada müəyyən mənada həqiqət var".

BP-nin əlaqələr, xarici işlər və regional strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəylinin sözlərinə görə, təmsil etdiyi şirkət Azərbaycanda təhsilin inkişafına dəstəyi öz sosial layihələrinin ən vacib istiqaməti kimi seçib. Çünki sürətlə dəyişən dünyamızda tədris və təhsilin əsasını, heç şübhəsiz, texnologiya, modernləşmə, elmi yenilik, çevik mühəndislik ideyaları təlqin edən yanaşmalar təşkil edir. Bu, bütün dünyanın, o cümlədən də Azərbaycanın təhsil məqsədlərindən biridir, çünki yalnız bu yanaşmalarla insanların həyatında müsbət dəyişiklik edəcək innovativ düşüncəyə sahib mütəxəssislər yetişdirmək olar.

Rəsmi açılışdan sonra qonaqlar və konfrans iştirakçıları ilk STEM liseyi ilə tanış olub, liseyin interaktiv elm muzeyində Elçin Abbasovun təqdimatını dinləyiblər.

Onu da qeyd edək ki, konfransda 80 müəllim iştirak edib. Onlar Təhsil Nazirliyinin təqdimatı ilə gələn müəllimlər, BDU-nun, APU-nun magistr və tələbələri, Hədəf liseyinin və ölkəmizdə fəaliyyət göstərən təhsil müəssisələrinin nümayəndələri olub.

Konfransda həmçinin Böyük Britaniyanın UKSTEM təlim mərkəzinin direktoru Mayk Kargill, təlimçi Riçard Mellor, Türkiyənin TEKNOKENT texnologiya mərkəzinin direktor müavini Ahmet Özaslan, təlimçi Meriç Umut, Almaniyanın Fischertechnik şirkətinin beynəlxalq satış üzrə meneceri Qriqori Zaytsev, "Hədəf STEM" Mərkəzinin müdiri Eşqin Quluzadə, olimpiadalar üzrə koordinator Məmməd Kərimli məruzəçi-treyner olaraq çıxış ediblər.

Tədbirin ikinci günü 4 qrupdan ibarət olan müəllim heyəti 4 STEM əsaslı praktik dərsin iştirakçısı olub, müzakirələr aparıb, layihələr işləyiblər. Konfrans-treninq sertifikatların təqdimatı ilə yekunlaşıb.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Yazıçı Əfqanın 90 illik yubileyi qeyd edilib

Dünən - Yazıçılar Birliyinin Natəvan klubunda yazıçı Əfqanın 90 illik yubileyi ilə bağlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər yubilyarın çox zəngin və maraqlı həyat yolundan danışıblar.

Qeyd olunub ki, Əfqan Əsgərov gənc yaşından bədii yaradıcılığa böyük həvəs göstərib, şeirlər yazıb. Bakı Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alıb. 1953-cü ildə universiteti bitirən Əfqan Əsgərov jurnalist kimi ilk dəfə "Azərbaycan gəncləri" qəzetində fəaliyyətə başlayıb. Qəzetin səhifələrində bir-birinin ardınca maraqlı publisistik yazıları, oçerkləri, felyeton və hekayələri dərc edilib.

Tədbirdə çıxış edənlər diqqətə çatdırıblar ki, Əfqan Əsgərov jurnalistlərin bir çoxunun dəyərli məsləhətçisi olub. Uzun illər "Kommunist" qəzetində çalışan, həmin qəzetdə ədəbiyyat şöbəsinə rəhbərlik edən Əfqan Əsgərov hər zaman istedadlı qələm adamlarına yol açıb. O, 1989-cu ildə "Sovet kəndi" qəzetinin redaktoru olub. 1991-ci ildə Ali Sovetin orqanı olan "Həyat" qəzetinin baş redaktoru işləyib. Bu mətbu orqanlarda fəaliyyəti ilə də həm istedadlı jurnalist, həm də bacarıqlı təşkilatçı kimi rəğbət qazanıb.

Çıxış edənlər istedadlı yazıçı kimi tanınan yubilyarın "Gülyanaq", "Katib", "Həsrət də bir vüsaldır", "Qartal əfsanəsi", "Dədə Bəhmən", "Qozbel", "Məhəbbət ətirli qərənfilim", "Dünya gözəlliyindir", "O, daş deyildir" və başqa nəsr əsərlərinin oxucular tərəfindən maraqla qarşılandığını qeyd ediblər.

Tədbirdə həm də yazıçının yeni işıq üzü görmüş "Şahlar şahı" kitabı təqdim olunub. Çıxış edənlər bildiriblər ki, Əfqanın bu tarixi-əfsanəvi romanında hadisələr 6-cı əsrin ikinci yarısında, indiki Azərbaycan ərazisində cərəyan edir. Bildirilib ki, müəllif əfsanə və rəvayətlərlə reallıq və faktları zərgər incəliyi ilə hörərək yenə ürəyəyatımlı, oxunaqlı bir əsər yaradıb.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Ünsiyyətləri sözsüz və səssiz olanların öz dilləri var

Onlara küçə və bazarlarda addımbaşı rast gəlinmir. Cəmiyyətdən bir qədər təcrid həyat tərzi keçirməyə məhkum olanlardan söhbət gedir. Söhbətləri sözsüz və səssiz olur. Bunu anlamaq, duymaq və cavab vermək isə sizə asan gəlməsin.





Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada hər 10 nəfərdən biri əlildir. Azərbaycanda isə onların sayı 400 mindən çoxdur. Fiziki cəhətdən qüsurlu insanların cəmiyyətə inteqrasiyası da hələ ki, problemdir. Eşitməyən və danışmayan, lakin düşüncələrini jestlə izah edənlərin yalnız xüsusi məktəbləri yox, ilk növbədə öz dünyaları var...

Hər il sentyabrın son bazar günü dünyada Beynəlxalq Lal-Karlar Günü kimi qeyd olunur. 1951-ci ilin sentyabr ayında Beynəlxalq Lal-Karlar Federasiyası yaradıldı və bu federasiyanın yaradılması şərəfinə Beynəlxalq Lal-Karlar Günü təsis edildi.

Statistikaya görə bu gün dünyada hər doqquz nəfərdən biri (təqribən 650 milyon nəfər) eşitmə qabiliyyətindən məhrumdur. Onlar bu qabiliyyəti ya anadangəlmə itirir, ya da xəstəlik nəticəsində məhrum olurlar.

Ancaq bunlarla yanaşı, alimləri daha çox maraqlandıran isə jest dilidir. Beynəlxalq Lal-Karlar Federasiyası jestlər sistemini 50-ci illərdə yaradıb. Burada məqsəd eşitmə və danışma məhdudiyyətlilərinin beynəlxalq tədbirlərdə iştirakına xidmət etmək olub.

Eşitmə və danışma qabiliyyətini itirmiş insanlar arasında çox tanınmış, görkəmli şəxslərə də rast gəlinir. Məsələn, bunlardan Pyer De Ronsarı, Viktor Hüqonu, Lüdviq van Bethoveni, Jan Jak Russonu, Klod Andre Deseni, Karel Çapeki, Antonio Stanolini və s. göstərmək olar.

## "Danışan" baxışlar

Azərbaycanda beləlləri arasında rəssamlığa, idmana meyil edənlər də az deyil. Onlar beynəlxalq yarışlarda da iştirak edirlər. Qızlar daha çox dərzi, qadınlar isə saç ustası olurlar. Aralarında gözəllik salonlarında işləyənlər də az deyil. Lakin onlar ali təhsil almırlar. Çünki heç bir ali məktəbdə bu sahədə peşəkar kadr - müəllim yoxdur.

Gülzadə Verdiyeva ilə Gözəl Qurbanovanın əl işləri adamı heyran edir. Onlar muncuqlardan Azərbaycanın, Türkiyənin bayraqlarını əks etdirən suvenirlər düzəldirlər. Hətta deyirlər ki, Amerikadan gələn turistlər onların əl işləri ilə tanış olub, bir neçə fiqur alıblar. Üstəlik, onlara Amerikanın bayrağını hazırlamaq da sifariş edilib.

Bakının Nizami rayonunda lal və karlar üçün yataqxana var. Ondan bir az kənarda kar uşaqlar üçün 1 və 3 nömrəli respublika internat məktəbləri fəaliyyət göstərir. 3 nömrəlidə 400-ə qədər şagird təhsil alır. Məktəbin yataqxanasında 150-dək uşaq qalır, digərlərini valideynləri axşam saat 6-dan sonra gəlib aparırlar. Burada uşaq evindən gətirilən bir lal da olub. Lal övladının istəyi ilə bir ailə həmin uşağı da öz övladı ilə birgə aparıb ki, onlar məktəbdə, müəllimlərindən öyrəndikləri mimika vərdişini evdə məşq etsinlər.

Ölkəmizdə belə uşaqların sayı təxminən 7 mindən çox olduğu iddia edilsə də, bu, dəqiq hesab edilmir. Ona görə ki, bu rəqəm lalkar uşaqların qeydiyyatdan keçənlərini əks etdirir. Eşitməsi zəif uşaqlar üçün əyani vəsaitlər kifayət qədər deyil. Qüsurlu uşaqların deffektoloq, loqoredlər sarıdan da bəxtləri gətirməyib. Əvvəllər bu ixtisaslı müəllimlər Moskva və Sankt-Peterburq şəhərlərində hazırlanırdı. Azərbaycan Dövlət Pedaqoji Universitetində belə ixtisaslar üzrə kadrlar hazırlansa da, sonradan onlar başqa peşəyə yiyələnirlər.

## "Səssizliyin səsi ol!"

Daha bir problem isə TV-lərin heç birinin fiziki cəhətdən qüsurlu insanların ehtiyacını nəzərə almamasıdır. Respublikamızda fəaliyyət göstərən telekanallar surdotərcüməçilərə ehtiyac görmürlər. Azərbaycan Dövlət Pedaqoji Universitetinin "İbtidai təhsilin pedaqogikası və psixologiyası" fakültəsində surdotərcümə fənni tədris olunsa da, mütəxəssis yetişmir. Respublikada surdotərcüməçi hazırlayan tədris müəssisəsi yoxdur.

Yeri gəlmişkən, maraqlı bir məqam: "Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" İctimai Birliyinin "Park Bulvar" alış-veriş və istirahət mərkəzində keçirdiyi "Səssizliyin səsi ol!" adlı tədbirində təşkilatın üzvləri və könüllülərdən ibarət komanda Azərbaycanın Dövlət himnini işarət dilində ifa ediblər.

Böyük marağa səbəb olan tədbirin keçirilməsində məqsəd ictimaiyyətin daha fəal təbəqəsi olan gənclərin, eləcə də vətəndaş cəmiyyətinin xüsusi diqqət və qayğısını eşitmə və nitq məhdudiyyətli insanlara cəlb etmək olub.

Adı çəkilən təşkilatın sədri Cəmilə Abdulova deyir ki, fəaliyyəti dövründə "Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" İB-nin bu tip aksiyaları az olmayıb. Tədbirin keçirilməsində birlik üzvlərinin və könüllülərin də xüsusi əməyi olub.

Könül Quliyeva "Araxçın" MMC-nin layihə təlimçisi və surdotərcüməçisidir. 20 ilə yaxındır ki, Şüvəlan qəsəbəsindəki sağlamlıq imkanları məhdud uşaqlar üçün fəaliyyət göstərən 2 nömrəli internat məktəbində çalışır. İşarə dilini ata-anasından öyrənib: "Uşaq vaxtı atamla anam öz aralarında işarə dili ilə danışanda marağım yarandı və mən də bunu öyrəndim. Bakı Dövlət Universitetini bitirdikdən sonra tərəddüd etmədən 2 nömrəli internat məktəbinə gəldim. Digər tərəfdən, bu sahə ilə bağlı kurslara getdim, bitirib sertifikatlar aldım. İxtisasım isə kimya-biologiyadır. Bu fənni uşaqlara işarə dili ilə tədris edirəm. Bura uşaqlar bütün məktəblərdə olduğu kimi, birinci sinifdən qəbul edilir və 11 il təhsillərini davam etdirirlər. Sadəcə olaraq fərq ondadır ki, bizim məktəbdə dərslər işarə dilində keçirilir. Bundan başqa, məktəbimizdə kurslar da var. Müəllimlərimiz də bu kurslarda işarə dilini öyrənirlər".

## Bərbərlik, aşbazlıq, dərzilik onların əsas məşğuliyyətidir

Təhsilləri orta məktəbi bitirdikdən sonra dayanır. Respublikamızda eşitmə və danışma məhdudiyyətli insanlar üçün gecə məktəbləri də var. Məsələn, kimisi rəssamlığa meyilli olur və məktəbdə oxuduğu müddətdə bu istedadını inkişaf etdirir. Həmçinin şagirdlər məktəbdə başqa peşələrə də yiyələnirlər.

Maraqlıdır, Bakıda eşitmə və danışma məhdudiyyətlilər üçün məktəblər var, bəs rayonlarda belə uşaqlar necə təhsil alırlar? Könül Quliyeva bu sualın da cavabını verir: "Rayonlardan bizim məktəbə gələn uşaqlar çoxdur. Məktəbimizin yataqxanası var axı. Buna baxmayaraq, uşaqlar həftə sonu evlərinə gedirlər. Buna görə də hər ay şagirdlərin kartlarına yolpulu yatırılır. Tədris ili bitənə yaxın, may ayında müəllimlərimiz rayonlara həm məktəbimizi tanıtmağa, həm də uşaq yığmağa gedirlər. Məktəbimizdə hansı işlər görülür, uşaqlar necə təhsil alır, bu barədə rayonlarda valideynlərə məlumat verilir.

Maraqlıdır, əvvəllər telekanallarda işarə dili ilə xəbərlər verilirdi. Nədənsə son zamanlar bu, unudulub. Biz daha çox istəyirik ki, kanallarımızın birində heç olmasa həftənin bir günü sırf eşitmə və danışma məhdudiyyətli uşaqlar üçün onların iştirak edə biləcəyi bir veriliş olsun. Biz surdotərcüməçilər varıq və bu işdə öz dəstəyimizi göstərə bilərik. Belə olsaydı, cəmiyyət onları daha çox tanıyardı. Bu da nəticədə onların cəmiyyətə adaptasiyasını daha da asanlaşdırardı. Çox yerdə eşitmə və danışma məhdudiyyətli uşaqlar əllə danışanda onlara başqa cür münasibət göstərirlər. Unudurlar ki, bu işarə onların dilidir, fikirlərini ifadə edirlər".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***




# Nəsimi festivalı: "Şamaxı antologiyası" əlyazmasına dair sərginin təqdimatı olub

Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən İkinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində sentyabrın 29-da Şamaxı Tarix-Diyarşünaslıq Muzeyində "Şamaxı antologiyası" əlyazmasına dair sərginin təqdimatı olub.













AZƏRTAC xəbər verir ki, Türkiyə, Çin, Rusiya, Əfqanıstan, İndoneziya, Fransa, İngiltərə və digər ölkələrdən olan 150 nəfərdən çox festival iştirakçısının qatıldığı təqdimat mərasimini Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov açaraq qonaqları Nəsimi yurdunda salamlamaqdan şərəf duyduğunu bildirib.

Mərasimdə çıxış edən Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından olan İmadəddin Nəsimi və onun kimi mütəfəkkirlərin yaradıcılığının tədqiqi və təbliği sahəsində fondun həyata keçirdiyi layihələrdən danışıb. Vurğulayıb ki, böyük şair İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli sərəncamı, 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ölkəmizdə tarixən məşhur, dünya şöhrətli insanların irsinin axtarılıb üzə çıxarılmasına, tanıdılmasına göstərilən böyük diqqətin nəticəsidir.

Təbriz İslam Sənət Universitetinin professoru Kərim Mirzay çıxışında miniatür sənətinin incəliklərindən, Təbrizdə, o cümlədən Şamaxıda ədəbiyyat və incəsənətin, xüsusilə də miniatür rəssamlıq və xəttatlıq sənətinin inkişafından danışıb. Miniatür sənətinin incəliklərinə toxunan professor bu sənətin bir nəfərin deyil, xəttatın və ümumən bir qrupun işi olduğunu vurğulayıb.

Qeyd edək ki, əlyazma 1468-ci ilə aiddir və hazırda Londondakı "Britaniya" kitabxanasında saxlanılır. Əlyazmada 12 farsdilli şairin seçilmiş əsərləri toplanılıb. Onlardan bizə yalnız Kamal Xocəndi, Hafiz Şirazi, Əbdürrəhman Cami, Əmir Xosrov Dəhləvi, Şahi Sibzavari məlumdur. Əlyazma gözəl nəstəliq xətti ilə hər birində üç qəzəl olmaqla iki sütuna köçürülüb.

